# ADP rusdilli məktəblərin bağlanılmasını təklif edir


# Hürriyyət

SİZİN ÜÇÜN QƏZET

№37 (3376) 14 Oktyabr / 2025-ci il | Həftədə 1 dəfə çıxır | Qiymәti: 60 qəpik


**ANA XƏBƏR**



## 100 minlik dələduzluğa göz yumulur

# "Azərbaycan və Qazaxıstan təhdid altındadır..."

"Bakı və Moskva arasında əvvəlki münasibətləri bərpa etmək mümkün deyil"



8-9

**GÜNÜN NƏBZİ**

**Təhsil**

## "Təhsil ölkədə ən problemli sahədir"



Misir Mərdanov: "Səhvimiz varsa, qoy desinlər, amma bəzi tənqidlər tam qərəzlidir"

3

**Ölkə**

## Hakimlərin süni intellektlə əvəzlənməsi...

Çox hakimlər kimi vicdanı olmasa da, süni intellektin qərəzi də yoxdur

5

**Hüquq**

## Bir mənzil 4 dəfə hərraca çıxarılırsa...

Ali Məhkəmə sədrinə müraciət edən paytaxt sakini mənzilinin qanunsuz yollarla ələ keçirildiyini bildirir

7

**Sənət**

## Şəkidə qurulan "Dar ağacı"

Bəxtiyar Vahabzadə -100

13

**Yazar**

## Xalq yazıçısı Anar Rzayevə müraciət

14

**Layihə**

## Cəmiyyətdə qadınların rolu



Aygün Elşadqızı: "Ailəmizi sağlam qurmalıyıq ki, gələcəyə sağlam baxan övladlarımız olsun"

6

**Şəxsiyyət**

## Dünyanın tanıdığı alim



Eldar Məmmədbəyli Azərbaycan elminin inkişafı naminə yorulmadan çalışan görkəmli elm xadimidir

11

**Aktual**

## Narkotik pulları ilə "qidalanan" terror təşkilatları...

Oxucularımıza təqdim etdiyimiz bu məqalənin əsas məqsədi narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinin terror təşkilatlarının maliyyələşdirilməsində rolunu müəyyən etməkdir. Kimsəyə sirr deyil ki, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsindən əldə edilən gəlirlər bəzi terror təşkilatları üçün əsas maliyyə mənbəyidir. Narkotik ticarətindən əldə edilən gəlirlər bütün fəaliyyətləri maliyyələşdirmək üçün istifadə edilə bildiyindən, terror təşkilatlarının məqsədlərinə də çatmağa kömək edir...

15

**Baxış**

## Hüquqşünas və iqtisadçılarımız savadsızdırlar, yoxsa?..

ABŞ və İsrailin İrana 12 günlük məlum hücumundan sonra Tehranda bir neçə eşşəyin belinə ABŞ və İsrail bayraqlarını sərib, onları çubuqla döyməklə "ABŞ və İsrail dövlətini cəzalandırdıqlarını" İran vətəndaşlarına, həm də beynəlxalq ictimaiyyətə nümayiş etdirdilər. "Hürriyyət" qəzetinin 09 sentyabr 2025-ci il tarixli sayında Məğrur Bədəlsoyun "Hüquqi nihilizm" məqaləsini və ölkədə baş verən iqtisadi-ictimai proses və hadisələrə əksər iqtisadçı və siyasətçilərlə müqayisədə nisbətən xeyli obyektiv və savadlı mövqe sərgiləyən, uzun müddət idarəçilik və siyasi fəaliyyət təcrübəsinə malik olan iqtisadçı Vahid Əhmədovun da qəzetə verdiyi müsahibə ilə tanış olandan sonra Tehranda molla faşizmi nümayəndələrinin "Eşşəklərin simasında ABŞ və İsraili cəzalandırması" tədbiri yadıma düşdü...

4

SİZİN ÜÇÜN QƏZET

# Hürriyyət

№37 (3376) 14 Oktyabr / 2025-ci il Həftədə 1 dəfə çıxır Qiymәti: 60 qəpik

# Bu dəfə 450,3 milyon dollara satıldı...



## Leonardo da Vinçinin "Dünyanın Xilaskarı" əsəri record qiymətə alıcı tapdı

**Dünya bazarında bədii əsərlərin dəyəri bəzən kiçik dövlətlərin büdcəsinə bərabər məbləğlərə çatır. Xarici media xəbər verir ki, mütləq rekord isə Leonardo da Vinçinin "Dünyanın Xilaskarı" ("Salvator Mundi") əsərinə məxsusdur - bu tablo 450,3 milyon dollara satılıb.**

Bu məbləğ 2017-ci ildə Christie's hərracında ödənilib və bu pula Karib dənizində şəxsi bir ada və ya kiçik bir lüks yaxta donanması almaq mümkün olardı. Belə yüksək qiymət bir sıra unikal amillərin təsadüfü nəticəsində yaranıb.

Əvvəla, bu əsər Renessans dövrünün dahi rəssamı Leonardo da Vinçinin fırçasına məxsusdur. Onun dünyada çox az sayda əsəri mövcuddur və demək olar ki, hamısı muzey kolleksiyalarında saxlanılır. "Dünyanın Xilaskarı" isə satış zamanı şəxsi mülkiyyətdə olan yeganə Leonardo əsəri idi.

İkincisi, tablo ilə bağlı heyrətamiz bir tarix var: uzun illər itmiş sayılırdı və yalnız Leonardonun şagirdlərinə aid iş kimi tanınırdı. Yalnız müasir tədqiqatlar və restavrasiya işləri bu əsərin məhz ustanın özünə məxsus olduğunu sübut etdi. Böyük sənətkara aidliyin təsdiqi hər zaman əsərin qiymətini bir neçə dəfə artırır.

Əsərin dəyərinə təsir edən digər amil - Xilaskar İsa obrazının Leonardo üçün nadir olan ikonoqrafik üslubda işlənməsidir. Bu, əsəri incəsənət baxımından bənzərsiz edir. Tablodakı sirli təbəssüm və işıq-kölgə oyunu rəssamın son yaradıcılıq dövrünə xas xüsusiyyətlərdəndir.

2017-ci ildə keçirilən hərrac anonim telefon alıcıları arasında əsl mübarizəyə çevrildi. Bu isə emosional gərginliyi və qiymətin daha da qalxmasını təmin etdi. Psixoloji amillər və əsəri istənilən qiymətə əldə etmək arzusu qiymətin yüksəlməsində əsas rol oynadı.

Tablo bir vaxtlar ciddi şəkildə zədələnmişdi və bir neçə dəfə restavrasiya olunmuşdu. Lakin bu, kolleksiyaçılar üçün onun dəyərini azaltmadı, əksinə, əsərə sirli bir aura əlavə etdi. Restavratorların müdaxiləsinin səviyyəsi və əsərin qorunma dərəcəsi barədə mübahisələr hələ də ekspertlər arasında davam edir.

Belə bir əsərin alınması təkcə lüks predmetə sahib olmaq deyil, həm də güclü maliyyə aktivinə və unikal status simvoluna sahib olmaq deməkdir. Alıcı öz kolleksiyasına sadəcə bir tablo deyil, incəsənət tarixində bir mərhələ qazandırır.

Əsərin sonrakı taleyi sirrlə örtülüb, bu da onun əfsanəsini daha da gücləndirir və gələcəkdə qiymətinin artmasına səbəb ola bilər. "Dünyanın Xilaskarı" sənət, tarix və pulun möhtəşəm şəkildə bir-birinə qarışdığı nadir hadisələrdən biridir.

Bu sövdələşmə sənət əsərlərinin dəyərinin sərhədləri haqqında təsəvvürləri tamamilə dəyişdirdi və bazar üçün yeni bir rekord səviyyə müəyyənləşdirdi. O, bir daha sübut etdi ki, dahi bir sənətkarın irsi obyektiv qiymətə malik deyil - bu, büdcə ilə ölçülməyən, istək və dəyərlə müəyyən olunan bir xəzinədir.

## Əyləncə səhifəsi



# 54 min əhalisi olan ölkə tarix yazır...

**Cəmi 54 min əhalisi olan Farer adaları Dünya çempionatının seçmə mərhələsində böyük sürpriz edib. Çexiya üzərində 2:1 hesablı qələbə qazanan ada ölkəsi 12 xalla pley-offa vəsiqə qazanmaq şansını qoruyur. Komandanın əsas oyunçusu Arni Frederiksberq əslində pizzaçıdır.**

Belə ki, Dünya Çempionatının seçmə mərhələsində L qrupunda mübarizə aparan Farer adaları tarixi uğura imza atır. 54 min əhalisi olan ada ölkəsi son beş oyunun dördündə qalib gəlib, ən son isə güclü Çexiyanı 2-1 hesabı ilə məğlub edib. Bu nəticə ilə Farer adaları xallarının sayını 12-yə yüksəldib və dünya çempionatının pley-off mərhələsinə vəsiqə qazana bilər.

Bu qələbədən sonra Farer adaları 12 xalla qrupda üçüncü pillədə qərarlaşıb. Çexiya və Xorvatiya 13 xalla liderliyi bölüşür, Farer adaları isə son oyununda Xorvatiya ilə üz-üzə gələcək. Qələbə ölkənin tarixindəki ən böyük nailiyyət olan Dünya çempionatının pley-off mərhələsini təmin edəcək.

Cəmi 54 min əhalisi olan Farer adalarının bu çıxışı futbol dünyasında böyük rezonans doğurub. Komandanın ən vacib oyunçusu pizzacı Arni Frederiksberqdir.

Təvazökar heyətinə baxmayaraq, nizam-intizamı və komanda ruhu ilə seçilən ada təmsilçisi Avropa futbolunun nəhəngləri arasında nağıl kimi hekayə yazır.

# Qorxu filmləri arıqlamağa kömək edir...

**90 dəqiqəlik qorxu filminə baxmaq, orta hesabla təxminən 150 kalori yandırmağa kömək edir. Bu, 30 dəqiqəlik gəzinti və ya yüngül qaçış zamanı sərf olunan enerji ilə demək olar ki, eynidir.**





Bu nəticələr Vestminster Universitetində aparılan araşdırmada əldə edilib.

Qeyd olunur ki, təcrübədə 10 nəfər iştirak edib və onlar 10 fərqli qorxu filminə baxıblar. Araşdırma göstərib ki, qorxu filmlərindəki gərgin səhnələr ürək döyüntülərini sürətləndirir və maddələr mübadiləsini aktivləşdirir, nəticədə orqanizm daha çox enerji sərf edir.

Hərçənd yandırılan kalori miqdarı həm izləyicidən, həm də filmdəki qorxu səviyyəsindən asılı olub, nəticə aydın idi: film nə qədər qorxuludursa, orqanizm bir o qədər intensiv kalori yandırır.

"İzlənilən 10 filmin hər biri tamaşaçılarda ürək döyüntülərinin artmasına səbəb olub. Nə vaxt ki, nəbz sürətlənir və qan bədəndə daha sürətli dövr edir, orqanizm adrenalin ifraz edir. Bu hormon qısamüddətli stress və ya qorxu zamanı yaranır, iştahanı azaldır, maddələr mübadiləsini artırır və kalori yandırılmasını gücləndirir", - hüceyrəvi metabolizm və fiziologiya üzrə mütəxəssis, baş müəllim doktor Riçard Makkensi bildirib.

Ən qorxulu filmlər: alimlərin nəticələri

Əsas təcrübədən əlavə olaraq, tədqiqatçılar filmlərin qorxu səviyyəsinə və yandırılan kalori miqdarına görə reytinq tərtib ediblər:

"The Shining" (Stanley Kubrick) - orta hesabla 184 kalori;

"Jaws" - 161 kalori;

"The Exorcist" - 158 kalori.

Siyahıya həmçinin bu filmlər də daxil olub:

"Saw" - 133 kalori;

"A Nightmare on Elm Street" - 118 kalori;

"The Texas Chainsaw Massacre" - 107 kalori.

**Təsisçi:**
Sərdar Cəlaloğlu

**Baş redaktor:**
Vüqar Məmmədov
Tel: 070 333 22 85
012 496 98 93
E-mail: vuqar-mt@mail.ru

**Dizayner:**
Seymur Həsənov

"Hürriyyət" qəzetinin internet unvanı:
**Hurriyyet.az**
E-mail: hurriyyet@mail.ru
**Tiraj: 2500**

**Redaksiyanın ünvanı:**
AZ 1008, Bakı, akademik Ələşrəf Əlizadə küçəsi, 31
Telefonlar: 496-10-72; 496-08-35

Lisenziyanın qeydiyyat nömrəsi: V 165
Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır.
Redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnir və "Futbol+ servis" mətbəəsində çap edilib.

Bu işarə altında dərc olunan yazılar reklam xarakterlidir.

Qəzet 1991-ci ildən çıxır.

# ADP rusdilli məktəblərin bağlanılmasını təklif edir

## Partiya Azərbaycan və Rusiya prezidentlərinin görüşü haqda açıqlama yaydı: "Putin Azərbaycana qarşı imperialist niyyətindən vaz keçməyib"

**Dünən ADP İdarə Heyətinin ölkə və beynəlxalq aləmdə baş verən ictimai-siyasi proseslərə dair növbəti toplantısı keçirilib. Partiyanın mətbuat xidmətindən "Hürriyyət"ə verilən məlumata əsasən, toplantı iştirakçıları ilk növbədə ötən həftə MDB-nin Düşənbə sammiti çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyevlə Rusiya Prezidenti Vladimir Putin arasında baş tutan görüş ətrafında müzakirə aparıb. Müzakirələrdə bu görüşün iki dövlət arasında son dövrlər yaşanan gərgin münasibətlərin yoluna qoyulması istiqamətində əhəmiyyətli olduğu qeyd edilib.**



İdarə Heyəti eyni zamanda V.Putinin MDB-nin Düşənbə sammiti zamanı çıxışında "Azərbaycanı rusdilli ölkə kimi dəyərləndirilməsi" məsələsinə də münasibət bildirilib. Toplantı iştirakçıları Azərbaycanın türkdilli dövlət olduğu halda V.Putinin bu açıqlamasını kəskin tənqid edib, bu bəyanatın arxasında Rusiya prezidentinin Azərbaycana qarşı imperialist niyyətindən vaz keçmədiyi qeyd edilib. İdarə Heyəti bir daha Azərbaycanda dövlət büdcəsi hesabına fəaliyyət göstərən rusdilli məktəblərin bağlanmasının Azərbaycanın suverenliyi və müstəqilliyi baxımından xüsusi əhəmiyyət kəsb etdiyini bildirib.

İdarə Heyəti İsrail ilə HƏMAS arasında ateşkəs razılaşması və bu razılaşma əsasında tərəflər arasında girovların qaytarılması hadisəsini təqdir edib. Baş tutmuş razılaşmanın bölgədə yaşanan humanitar böhranın aradan qaldırılması baxımından böyük əhəmiyyət daşıdığı bildirilib. Eyni zamanda, bölgədə ədalətli sülhə nail olmaq naminə Fələstin dövlətinin yaradılmasının, Qəzzada baş verən hərbi cinayətlərin müstəqil beynəlxalq təşkilatlar tərəfindən araşdırılmasının və hərbi cinayətlərə yol vermiş hərbçilərin beynəlxalq hüquq normaları çərçivəsində cəzalandırılmasının vacibliyi bir daha vurğulanıb.

İdarə Heyəti Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın türk əsilli əcnəbilərin Türkiyədə hüquqi statuslarının və imkanlarının əhəmiyyətli dərəcədə genişləndirilməsi istiqamətində qərarına da münasibət açıqlayıb. Qəbul edilmiş qərarı təqdir edən toplantı iştirakçıları bu qərarın türkdilli əcnəbilərin Türkiyədə leqallaşmasına böyük töhvə verəcəyini bildirib.

İdarə Heyəti ötən həftə Azərbaycan, Türkiyə və Gürcüstan Müdafiə nazirlərinin Ankarada baş tutan görüşü ətrafında da fikir mübadiləsi aparıb. Müzakirələrdə bu görüşün Qafqazda sülhün və təhlükəsizliyin təmin olunması baxımından əhəmiyyəti vurğulanıb.

İdarə Heyəti ötən həftə Naxçıvan MR Babək rayonun Nehrəm kənd sakini, 44 günlük Vətən savaşının qazisi Əliyev Vüsal Məhərrəm oğlunun imkansızlıq səbəbindən intihar etməsi hadisəsinə də diqqət çəkib. Baş vermiş hadisəni böyük faciə kimi dəyərləndirən toplantı iştirakçıları aidiyyəti dövlət qurumlarını şəhidlərimizin və qazilərimizin ailələrinin sosial problemlərinin həllinə xüsusi diqqət ayırmağa çağırıb.

**Hazırladı: KƏNAN**





# 100 minlik dələduzluğa göz yumulur

## Yasamal Prokurorluğu vəzifəli şəxslərin adından sui-istifadə edən ata-balaya niyə cinayət işi açmır?..

**Gəncə şəhər sakini, hazırda Bakı şəhəri Yasamal rayonunda yaşayan İsayev Rafayıl Müzəffər oğlu tərəfindən "Hürriyyət" qəzetinin redaksiyasına növbəti dəfə müraciət daxil olub. Şikayətçi qəzetimiz vasitəsilə Baş prokuror Kamran Əliyevə və Daxili İşlər naziri Vilayət Eyvazova müraciət edir:**

**"Hörmətli Kamran Əliyev!**

**Hörmətli Vilayət Eyvazov!**

Diqqətinizə çatdırım ki, oğlanlarım - İsayev Cəlal Rafail oğlu və İsayev Cavidan Rafayıl oğlu qohumum Bayramov Azər Nizami oğlu və övladı Bayramov Cavid Azər oğlu tərəfindən külli miqdarda, yəni 60 min manat məbləğində dələduzluğa məruz qoyulmuşdur.

Bütün qohum-əqrəba kimi, biz də elə bilirdik ki, Bayramov Cavid Polis Akademiyasında oxuyur. O, Bakıda ailə üzvlərimlə birgə kirayədə yaşadığımız mənzildə qalırdı. Tez-tez vəzifəli şəxslərlə görüşdüyünü bildirir, hətta Daxili İşlər Nazirinin müavini Oktay Kərimov tərəfindən himayə olunduğunu deyirdi.

Həmin vaxtlar heç kəs bunun yalan olduğunu düşünmürdü. Yalnız oğlanlarımı aldadıb, bizi borca-xərcə salandan sonra başa düşdük ki, ata-bala dələduzdurlar. Evimizə məqsədli şəkildə girib, Gəncədə satdığımız evin pulunu ələ keçiriblər.

Belə ki, onlar yüksək vəzifəli şəxslərin adını çəkərək, onlarla birgə iş qurduqlarını bildiriblər. Oğlanlarıma da təklif ediblər ki, müəyyən qədər vəsait qoymaqla yaxşı gəlir götürə bilərlər. Onlar da, ümumilikdə 60 min manat olmaqla, ayrı-ayrılıqda əllərində olan pulları və borca götürdükləri vəsaitlərin hamısını Azər Bayramova və oğlu Cavid Bayramova veriblər. Ona verilən pulların hamısına, eləcə də ata-balanın vəzifəli şəxslərin adından istifadə etdiklərinə dair əlimizdə ciddi sübutlar var. Bu sübutların hər biri polisə və prokurorluğa təqdim olunub.



Hətta polisə müraciətdən sonra aydın olmuşdur ki, dələduz ata-bala tək bizi yox, başqa adamları da bu yolla aldadıb. Bizə verəcəkləri məbləğlə birgə, təxminən, 100 min manatlıq dələduzluq ediblər.

Maraqlıdır ki, şikayətçilərin sayı günügündən artsa da, prokurorluq ata-balaya cinayət işi açmır. Bayramovların səs yazılarında dediyi kimi, onları kimsə qoruyur.

**Cənab Kamran Əliyev!**

**Cənab Vilayət Eyvazov!**

Bayramov Azər Nizami oğlu və övladı Bayramov Cavid Azər oğlu polis bölməsində bizə borclu olduqlarını etiraf edib və 50 min manat verəcəklərini bildiriblər. Lakin indiyədək nə bizə, nə də digər zərərçəkmişlərə bir manat da ödəməyiblər. Nə qədər qəribə səslənsə də, son vaxtlar yaşadığımız bir çox hadisələr dələduz ata və oğulun yüksək rütbəli məmurlar tərəfindən himayə olunduqları haqda şübhələr yaradır. Söhbət ondan gedir ki, bu şəxslərin dələduzluqları ilə bağlı çoxsaylı faktları (telefon danışıqlarını, mesajları, "WhatsApp" yazışmalarını və sair) olduğu halda onlar barəsində heç bir tədbir görülmür. Digər qurumlarla yanaşı, sonuncu dəfə müraciət etdiyimiz Yasamal Rayon Prokurorluğu da cinayət işi açmır. İşə baxan prokurorluq əməkdaşı, müstəntiq Mayıl Vəliyev "bu işdə cinayət faktı görmədiyini" bildirib. Amma, necə olur ki, müstəntiqin cinayət işi açmayacağını dələduzlar əvvəlcədən bilir?!

Onu da qeyd edim ki, Azər Bayramov və oğlu Cavid hələ də Oktay müəllimin adından sui-istifadə edərək, "siz kimə şikayət etsəniz də, Oktay müəllim məni qoruyacaq, bir gün də içəridə qalmayacam", - deyirlər. Hətta sürdükləri bahalı maşınların belə, onlara vəzifəli şəxslər tərəfindən verildiyini deyirlər.

**Hörmətli Kamran Əliyev!**

**Hörmətli Vilayət Eyvazov!**

Vəzifəli şəxslərin adından istifadə edən, vətəndaşlara 100 min manatdan çox ziyan vuran bu ata-bala barəsində heç bir tədbir görülməməsi məni məyus edir. Qəbullara yazılıb, hər bir sübutu sizlərə təqdim etməyə hazıram.

Axı, necə ola bilər ki, ortada vəzifəli şəxslərin adından sui-istifadə halı olmasına rəğmən, cinayət işi açılmır?! Yoxsa vəzifəli şəxslərin adından istifadə edərək dələduzluq törədən şəxslərin "statusu" fərqli olur?!

Bu baxımdan, Sizdən xahiş edirik ki, tapdalanan hüquqlarımızın bərpasına dəstək göstərərək, bizə qarşı dələduzluq edən Gəncə şəhər sakinləri Bayramov Azər Nizami oğlu və övladı Bayramov Cavid Azər oğlunun qanunamüvafiq şəkildə cinayət məsuliyyətinə cəlb olunması üçün aidiyyəti qurumlara tapşırıq verəsiniz".

**Jalə FAMİLQIZI**

**Redaksiyadan: Qarşı tərəfin mövqeyini dərc etməyə hazırıq.**

# “Təhsil ölkədə ən problemli sahədir”

Sabiq təhsil naziri, Riyaziyyat və Müxanika İnstitutunun direktoru professor Misir Mərdanov lent.az saytına müsahibə verib. “Hürriyyət” həmin müsahibəni ixtisarla oxucularına təqdim edir.

***- Misir müəllim, Qərbi Azərbaycan icması ilə bağlı hansı proseslər gedir?***

- İcmada əsasən, Qərbi Azərbaycanla bağlı yazılmış yeni kitabların təqdimatında iştirak edirəm. Bu yaxınlarda yeni bir kitabın da təqdimatında iştirak etdim. Arxiv materialları əsasında Qərbi Azərbaycanda təhsil, mədəniyyət, tarix o kitabda var. Bilmədiklərimiz və bilmək istədiyimiz mövzularla bağlı işlər gedir. Bu mənada icmanın fəaliyyətini yüksək qiymətləndirirəm.

***- Bu yaxınlarda Vaşinqtonda sülh müqaviləsi paraflandı. Bu paraflanmadan sonra Qərbi Azərbaycan İcmasının hərəkət istiqamətində, fəaliyyətində bir dəyişiklik oldu?***

- Hər halda müəyyən dəyişiklik oldu. Açığını deyək ki, o sənəd paraflanana qədər biz qayıdış konsepsiyasının daha sürətlə həyata keçməsini istəyirdik. O sənədin mahiyyəti ondan ibarətdir ki, müharibə dayandı, daha ərazi iddiaları yoxdur, hərə öz torpağında inkişaf edir. Və Azərbaycanla Ermənistan arasında kommunikasiyalar, əlaqələr yaranmağa başlayır. Əvvəlki dövrlərə uyğun addımlar atılması gözlənilir.

***- 2000-ci ildə dədə-baba yurdunuza getmisiz. Necə alındı bu?***

- 2000-ci ilin may ayı idi, səhv etmirəmsə. İrəvanın yaxınlığında olan Dərəçiçək şəhərində beynəlxalq konfrans var idi. Konfransı UNICEF təşkilatı keçirirdi. Təhsil naziri kimi dörd nəfərdən ibarət nümayəndə heyəti ilə Tiflisə getdik. Gürcüstan nümayəndəsi ilə həmin konfransa qatıldıq. Bizi çox mehriban, yaxşı qarşıladılar. Sonra bir günlük İrəvana getdik. İrəvanda o dövrkü prezident Robert Köçəryanla, baş nazirlə görüşdüm. O görüş zamanı prezidentdən xahiş etdim ki, imkan yaratsınlar, mən öz kəndimə gedim. Onlar da dərhal şərait yaratdılar, maşın verdilər. Kəndə, öz evimizə getdim. Evimizdə bir qoca qadınla kişi yaşayırdı.

***- Evdə necə qarşıladılar sizi?***

- Normal qarşıladılar. Qeyri-insani bir şey görmədim. Həyətimizi gəzdim, oradan torpaq və su götürdüm. Yollar pis vəziyyətdə idi. İrəvan-Dilcan-İcevan yolu əvvəlki kimi deyildi, maşınlar çox az idi. Evimizin qarşısındakı sıx meşəlikdən əsər-əlamət qalmamışdı, kəsmişdilər. Evlərdə çox adam yox idi. Hərəsində bir qoca qadın və kişi yaşayırdı. İndi inanmıram onlar həyatda qala.

***- Sülh müqaviləsinin paraflanmasından sonra bəzi çıxışlarınız birmənalı qarşılanmadı...***

- Bilirəm nəyi nəzərdə tutursunuz. Bilirsiz, mən olmuş şeyləri danışdım. Keçmiş zamanda nəyinki Ermənistanda, hətta Bakıda ermənilərlə dost olan, bir yerdə işləyən adamlar olub. Mən adamları başa düşə bilmirəm. Deməliydim ki, o vaxt da düşmən olmuşuq? Olan şeyləri danışmışam. Gediş-gəlişimiz olub, çörək kəsmişik. Mən Bakıya gələndə oxuduğum universitetdə nə qədər erməni müəllim var idi. Bax, elə bu Mətbuat prospektinin adı Avakyan küçəsi idi. Bakının əsas küçələri ermənilərin adına idi.



**Misir Mərdanov:** “Səhvimiz varsa, qoy desinlər,amma bəzi tənqidlər tam qərəzlidir”

***- Əslində, bu, Sovet sisteminin diktəsi idi. Yoxsa bir azərbaycanlı küçəsinə erməni adı verməz. Avakyan ”26 Bakı komissarlarından” olub...***

- İndi belə düşünürsüz. O vaxt belə ayrı-seçkilik yox idi. Bir idarəyə gedirdin, oranın əsas adamı, Bakı Sovetinin müavinlərindən biri hökmən erməni olmalı idi. Pedaqoji institutda erməni dilində fakültə var idi. O dövrdə onu hamı normal hesab edirdi. Mən nə demişəm? Demişəm ki, Paşinyan bizim rayondan idi, onun əmisi bizim rayonda cərrah olub. İndi ona ad qoyurlar ki, Misir Mərdanov ermənilərə belə münasibət göstərir. Hətta mənə erməni deyənlər də var. Mən yalan deyə bilmərəm. Olanı deyirəm, deyəcəm də.

***- Misir müəllim, 1990-cı illərdən Azərbaycanda özəl universitetlər açılmağa başladı. Hətta bildiyim qədərilə, nazir postunda olanda özəl universitet açmaqla bağlı sizə müraciətlər də olmuşdu və müəyyən konfliktlər də yaşanmışdı. Nə ilə bağlı idi bu?***

- 1998-ci ildə nazir vəzifəsinə təyin olunanda Azərbaycanda 50-yə yaxın özəl ali məktəb var idi. Hətta kəndlərdə, rayon mərkəzlərində özəl ali məktəblər açılmışdı. Ulu Öndər Heydər Əliyev məni bu vəzifəyə təyin edəndə tapşırıq verdi ki, bu məsələylə ciddi məşğul ol. Məndən əvvəl özəl ali məktəblərə icazə verilməsi başqa qurumun əlində idi. Heydər Əliyev dedi, bu səlahiyyəti də Təhsil Nazirliyinə verəcəm. Biz də ciddi məşğul olurduq və çox təzyiqlərlə üzləşdim.

***- Necə təsirlər? Kimlər edirdi?***

- O məktəblərin arxasında müəyyən adamlar dururdu. Deputatlar, müxtəlif vəzifəli adamlar, imkanlı şəxslər dayanırdı. Mənə zəng edib təzyiq edirdilər ki, bunlara işin olmasın. Bəzi adamlar da deyirdilər ki, Misir Mərdanov istəmir liberallıq, demokratiklik olsun. Deyirdim ki, olsun universitetlər, amma gərək onun binası, müəllimləri, proqramı, dərsliyi olsun.

***- Belə çıxır ki, özəl universitetlər sadəcə diplom vermək işinə baxırdılar?***

- Demək olar ki, hə. Əsasən diplom məsələsi ilə məşğul olurdular. Biz onlarla ciddi iş apardıq və axırda 8-9 özəl ali məktəb qaldı. İndi onların, demək olar, hamısı fəaliyyətini davam etdirir.

***- Amma bu gün rüşvətlə bağlı ən çox o özəl universitetlərin adı hallanır...***

- 13 ildir ki, o işdən ayrılmışam. Birbaşa təmasım yoxdur. Ola bilər ki, düz olsun. Sizin dediyinizdə bir həqiqət var ki, dövlət universitetlərinin tarixi 100 ilə yaxındır. Özəl universitetlər isə yeni-yeni formalaşır. Ona görə də, təbiidir ki, orada problemlər də daha çox olacaq.

***- Eyni ixtisas həm dövlət universitetində, həm də digər özəl universitetlərdə var. Amma onlar daha az balla qəbul edirlər o ixtisasa.***

- Siz belə deyirsiz, amma mənim qarşıma qoyurdular ki, Azərbaycan qonşu və yaxın ölkələrlə müqayisədə əhalinin sayına düşən ali təhsillilərin sayına görə ən aşağıda durur. Buna görə, tələb edirdilər ki, ali məktəblərin və ali məktəblərdə yerlərin sayı çox olsun. Həmişə buna qarşı olmuşam. Sizin fikrinizə gəlincə, bir ixtisasın bir universitetdə olmasının əleyhinəyəm. Bu zaman inhisarlaşma yaranır. Məsələn, iqtisadiyyat ixtisası İqtisadiyyat Universiteti ilə yanaşı başqa bir universitetdə də olsa, yaxşı olar. Bu zaman səviyyəni müqayisə edə bilərik. Amma 2-3-dən çox olsa, bu yaxşı olmaz. Lakin sizin bəyənmədiyiniz Sovet dövründə yeni ixtisas açmaq üçün Moskvadan komissiya gəlib yoxlayırdı ki, universitet bu ixtisasa hazırdırmı? Ondan sonra nazir qərar verirdi, bu ixtisası açmaq olar, ya yox. Təəssüf ki, son dövrdə, lap elə mənim dövrümdə də buna əməl etmədik. Hansısa universitetə bir ixtisası verərkən bilmək lazımdır ki, o universitet buna cavab verə biləcək, ya yox.

***- Bəziləri düşünür ki, Azərbaycan təhsilinin ən yaxşı dövrü sizin vaxtınızda olub, amma bəziləri də deyir, Misir Mərdanov Azərbaycan təhsilini daha aşağı səviyyəyə salıb...***

- Bunların hamısını bilirəm. İnsanlardır da. Nazir işləyəndə məni tənqid edən o qədər insan var, indi yanıma gəlib deyir ki, səhv etmişəm. İndiki işləri də tənqid edənlər var, amma bilmək olmaz sonra nə deyəcəklər. Təhsil elədir ki, dünyanın hər ölkəsində ən problemli sahədir. Təhsil həmişə millətin gözünün qabağında tənqidə məruz qalan sahə olub. Açıq danışmaq lazımdır, səhvimiz varsa, qoy desinlər. Amma bəzi tənqidlər tam qərəzlidir. Onları heç müzakirə etməyə dəyməz.

***- Dediniz ki, təhsil hər ölkədə ən problemli sahədir. Bu baxır hansı müstəvidə olur. Bizdə bu rüşvət səviyyəsində müzakirə edilir.***

- Təhsildən xəbəri olmayan adam bilmir ki, o məktəb necə idarə edilir. Kənardan baxıb söz danışırsız. Bilmirsiz ki, məktəbin problemini həll etmək üçün direktorun sərəncamında 1 qəpik belə pul yoxdur. Məktəbin şüşəsi sınsa və ya başqa bir hadisə baş versə, məktəb direktoru onu nəyin hesabına düzəldir? Bunu bilmədən ağızlarına gələni danışırlar. Məsələn, istilik sistemi xarab oldu. Onu düzəltdirmək üçün məktəbin direktoru yazmalıdır rayon təhsil şöbəsinə, rayon təhsil şöbəsi yazmalıdır maliyyə şöbəsinə, maliyyə şöbəsi də xəzinədarlıqdan pul çıxarmalıdır. Ona qədər artıq yaz gəlir. Bəs məktəb direktoru neynəsin? Demirəm ki, məktəb direktoru ucdantutma pul yığsın, amma bəzi şeylər var ki, direktor heç nə edə bilməz.

***- Bəs siz nazir olduğunuz dövrdə bu məsələ ilə bağlı nəsə etdiz? Büdcə yaratdız?***

- Onu dövlət etməlidir.

***- Belə çıxır ki, şagirdlərdən pul yığılmasının bir səbəbi idarəolunmaya gəlib çıxır.***

- Bəli, elədir. Dünyada hər bir məktəbin şagirdinin sayına uyğun büdcəsi olur. O büdcəyə direktor rəhbərlik edir. Bizdə isə elə deyil. Məktəbin saxlanmasına, qorunmasına bir qəpik də ayrılmır. Milyonlarla rüşvət alanları demirsiz, bir ətir, gül alan müəllimdən danışırsız. Əgər bir valideyn görürsə ki, müəllim onun uşağına övladı kimi baxır, dərs deyirsə, 8 martda ona bir gül verməyi rüşvət adlandırmaq doğru deyil.

***- Misir müəllim, axı məktəbin problemini həll etmək, dövlətin, Təhsil Nazirliyinin işidir. Burada direktorun nüfuzunu önə çıxarmaq məsələni daha dar çərçivəyə salmaqdır. Ondansa məsələnin kökünə varmaq daha doğru deyil?***

- Mən nazir olan vaxtı Dünya Bankı ilə müəyyən proyektlər həyata keçirirdik. Çətinliklə olsa da, hökumətin bir qərarını ala bildim ki, 3 rayonda məktəblərin maliyyələşdirilməsini dediyim formada edək. Yəni dünyada olduğu kimi hər məktəbə şagird sayına uyğun maliyyə ayrılsın və imkan verilsin ki, məktəb bu vəsaiti özü idarə eləsin. Bəlli oldu ki, bu halda dövlətin vəsaitinə xeyli qənaət olunur. Hər il də bununla bağlı iclas keçirir, hökumətə məlumat verirdik. İmzaladığımız sənədə əsasən, 3 ildən sonra bu pilot layihəsinin nəticəsi müzakirə olunmalı və hökumət qərar qəbul etməli idi. Müzakirə edildi, amma qərar qəbul edilmədi.

***- Niyə?***

- Mənlik deyildi. Hökumət qərar qəbul etmədi. Ancaq indi o məsələni qaldırmaq istəyirlər. Mənə elə gəlir ki, ən optimal yol budur. Bəlkə də, dünyada daha optimal variantlar var.

***- Nazir olduğunuz dövrdə sizə ən çox nələrə görə təzyiqlər olurdu?***

- Çox şeyə görə. Məsələn, məktəb tikintisinə görə. Məktəb tikintisi əvvəl bizdə idi, sonra bizdən alıb verdilər İcra Hakimiyyətlərinə.

***- Niyə?***

- Görünür, bizim işimiz qane etmədi. Sonra yenə qaytardılar. Müəyyən adamlar var idi. Hamı istəyirdi ki, bu tikinti ona verilsin. Biz bu işi qanun-qayda ilə yerinə yetirirdik, tender elan edirdik. Müəyyən adamlar cəhd göstərdilər, istəklərinə nail oldular və məktəblərin tikintisini aldılar bizdən.

***- Kimlər aldı?***

- Onların adını o zaman da bilmirdim, indi də deyə bilmərəm.

**Rəhman Mirzəlizadə**

**ABŞ və İsrailin İrana 12 günlük məlum hücumundan sonra Tehranda bir neçə eşşəyin belinə ABŞ və İsrail bayraqlarını sərib, onları çubuqla döyməklə “ABŞ və İsrail dövlətini cəzalandırdıqlarını” İran vətəndaşlarına, həm də beynəlxalq ictimaiyyətə nümayiş etdirdilər.**

# Hüquqşünas və iqtisadçılarımız savadsızdırlar, yoxsa?..



“Hürriyyət” qəzetinin 09 sentyabr 2025-ci il tarixli sayında Məğrur Bədəlsoyun “Hüquqi nihilizm” məqaləsini və ölkədə baş verən iqtisadi-ictimai proses və hadisələrə əksər iqtisadçı və siyasətçilərlə müqayisədə nisbətən xeyli obyektiv və savadlı mövqe sərgiləyən, uzun müddət idarəçilik və siyasi fəaliyyət təcrübəsinə malik olan iqtisadçı Vahid Əhmədovun da qəzetə verdiyi müsahibə ilə tanış olandan sonra Tehranda molla faşizmi nümayəndələrinin “Eşşəklərin simasında ABŞ və İsraili cəzalandırması” tədbiri yadıma düşdü.

M.Bədəlsoy öz məqaləsində I dərəcəli Qarabağ müharibəsi əlilinin (məqalədə əlil ifadəsi kimi yazıldığından mən məcburən Yaralı Qazimiz haqqında bu ifadəni işlətdiyimə görə ondan çox üzr istəyirəm - Ş.Q.) şikayətinə baxılması, daha dəqiq desək, baxılmaması prosesində çoxsaylı qanunsuzluqlara yol verilməsi haqqında bəhs edir.

Həyatda hər hansı istənilən daimi, müəyyən fasilələrlə, hətta təsadüfən baş verən proses və hadisələrin baş verməsini zəruri, qaçılmaz edən start nöqtəsində mövcud olan SƏBƏB amili və ya amilləri, sonunda isə onun nəticələri mövcud olur. Bu da inkaredilməz aksiomadır ki, hər hansı qeyri-normal proses və hadisəni aradan qaldırmaq üçün onu yaradan səbəb amillərinin aradan qaldırılması hökmən zəruridir. Digər halda problemin həlli mümkün deyil. Bu həqiqəti hamı, xüsusilə ali təhsil almış hər bir kəs bilməlidir.

Lakin çox maraqlıdır ki, cəmiyyətdə baş verən iqtisadi-ictimai proses və hadisələri təhlil edərək problemlərin aradan qaldırılması üçün dəqiq, düzgün yol göstərməli olan yüksək titullu, vəzifəli, çoxillik iş təcrübəsinə malik iqtisadçılar, hüquqşünaslar öz yazılarında, müsahibələrində yol göstərmək əvəzinə, cəmiyyət üzvlərinə sual ünvanlayır, ya da səthi, alayarımçıq təkliflərlə başlarını girləyirlər.

Cəmiyyətə sual ünvanlamaq baxımından Məğrur Bədəlsoy Yaralı Qarabağ Qazisinin şikayətinə münasibətdə hüquq mühafizə orqanları əməkdaşlarının tutduqları mövqeyin, çıxardıqları qərarların Anayasaya və ondan irəli gələn qanunlara uyğun olmadığını iddia edir. Və bunun belə olmasının səbəbini anlamaq üçün isə sualı oxucuya və onun, qanunsuzluq etdiklərini iddia etdiyi məmurlara ünvanlayır. Məhz bu zaman istər-istəməz Tehran mollalarının heç bir günah sahibi olmayan eşşəklərin belinə ABŞ və Israil bayraqlarını qoyaraq, döyüb “ABŞ və İsraili cəzalandırması” yada düşür.

> “Kəndimizdə bir xoruz hər gün səhər banlayırdı. Bir gün səsi kəsildi. Sahibindən soruşdum. Dedi ki, - “Camaat şikayət etdi ki, bizi yatmağa qoymur, mən də başını kəsdim”. O gündən anladım ki, camaatı oyatmaq istəyənlərin başı kəsilir”.
>
> **Məmmədhüseyn Şəhriyar**

Məsələnin məğzinin oxucuya aydın olması üçün mən öz fikrimi bildirməkdən öncə Məğrur Bədəlsoyun məqaləsindən onun istinad etdiyi bəzi qanunları və məsələyə yanaşmasını əks etdirən parçaları oxucuya təqdim edirəm:

“Məhkəmə qərarlarının dövlətin adından çıxarılması, məhkəmə aktlarının məcburiliyi, icra olunmamasının qanunla müəyyən olunmuş məsuliyyətə səbəb olması, Konstitusiyanın 129-cu, MPM-nin 15-ci maddəsində təsbit olunub. İPM-in 116.1-ci maddəsində yazılıb: “Bu məsələ ilə başqa qaydanın nəzərdə tutlmadığı hallarda məhkəmə qərarlarının icrası ilə bağlı Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin və “İcra haqqında” Azərbaycan Respublikası Qanununun müvafiq maddələri tətbiq olunur”. Ali Məhkəmənin Plenumu 19.11.2021-ci ildə formalaşdırdığı inzibati məhkəmə qərarlarının icrasının təmin edilməsi təcrübədə hətta MPM-də nəzərdə tutulan Məhkəmə Aktının İzah edilməsinə baxılması vurğulanıb. Qanunvericilik normalarını vurğulamaqda amacımız Bakı İnzibati Məhkəməsinin (BİM) qəbul etdiyi qərarların icrasına qeyri-prosessual qadağasını, hətta tələbkarın ərizələrinin qəbulundan imtina edilməsini, ümumi məhkəmələrin, cinayət məhkəmələrinin isə BİM-nə müraciət etməyi məsləhət görməsini diqqətə çatdırmaqdır. Beləcə məhkəmə qərarlarının icrasına qadağa qoymaqla, Konstitusiyaya da, məhkəmə müdafiəsi hüququna da qadağa qoyulmuş olur və dolanbacdan, labirintdən çıxmaq icranın təmin olunmasına verilən ərizənin özü kimi mümkün olmur... Hətta elektron kabinetdən verilən ərizələrin qəbulundan dələduzluqla (bunun başqa adı varmı?) imtina edilir. PA, MHŞ ilə məhkəməyə daxil olan, eləcə də birbaşa dəftərxanaya təqdim edilən ərizələr isə (8-1 kodu) kabinetdə yerləşdirilmir. Halbuki ərizələrin qəbulundan imtina edilməsinin etibarsız sayılması Prosessual Məcəllələrin tələbidir və məhkəməyə, Konstitusiyaya hörmətsizlik deməkdir...

Konstitusiyanın mümkün sayılmaması özbaşınalığına baxın, bəyəm tələbkar kassasiya şikayəti verib ki, vəkilsiz olduğundan mümkün sayılmasın?! Tələbkarın qərardaddan şikayətini birinci instansiya məhkəməsi yanlış olaraq aidiyyatın müəyyən olunması üçün kassasiya instansiyasına göndərib. Ali instansiya bu yanmışlığa qiymət vermək yerinə, (verilməyən) kassasiya şikayətini mümkün saymayıb. Halbuki qərardad ləğv edilməli, icraata xitam verilməli və BİM-ə müraciət edilməli olması göstərilməlidir. Niyə prosessual qanunvericiliyə yox, qeyri-prosessual ilitşkiyə üstünlük verilir?

***P.S.*** *Bakı İnzibati Məhkəməsinin məhkəməyə tələbkar kimi verilən ərizələri qəbul etməməsindən 1 il qabaq Nəsimi Məhkəməsində iddia qaldırılıb. Hakim... 5 aydan sonra tələbi “bölüb”, bir hissədə baxılmamış saxlayıb, o biri hissədə icraata xitam verib ki, BİM məhkəmə deyil. Apellyasiya Məhkəməsi də bunu qüvvədə saxlayıb. Ali Məhkəmə... 03.09.2025-ci ildə kabinetdə məlumat yerləşdirib ki, 1 aydır icraatda mümkün sayılan şikayət qeyri-mümkün sayılıb (??). Bunu necə anlayaq, tələbkarın heç hüququ yoxdur?*

*Hələ günümüzdən min illər öncə Demosfen yazırdı ki, - “qanun dövlətin canıdır. Cansız bədən ölü olduğu kimi, qanunsuz dövlət də məhvə məhkumdur”.*

*Məğrur Bədəlsoyun məsələni çözməsi cəhdində ən böyük və əsaslı səhvi cəmiyyətdə bu və digər problemlərin yaranması səbəblərini çox səthi müstəvidə axtarmasıdır. İlk olaraq onu qeyd edim ki, bu məsələdə ilk eybəcərlik məhkəmə qərarlarının qanun adından deyil, dövlət adından çıxarılmasıdır. Çünki, dövlət təşkilati-texniki mexanizm olmaqla, əslində 4 qoldan ibarət olmalıdır. Yəni, dövlətin qanunverici orqanı cəmiyyətin idarə edilməsi üçün zəruri qanunlar toplusu hazırlayıb qəbul etməli, icra orqanı olan hökumət bu qanunların məzmun və çərçivəsindən kənara çıxmadan cəmiyyətdəki proses və hadisələri idarə etməlidir.*

*Məhkəmə bu qanunları pozmaqda ittiham edilənlərin günahsız və ya günahkar olmasını müəyyən edərək, günahkarları qanunun tələb və qaydalarına uyğun cəzalandırmalıdır. Dövlətin müxtəlif ölkələrdə fərqli formalarda olan nəzarət qolu isə ölkədə bütün dövlət orqanları, hüquqi şəxslər və vətəndaşların bu qanunlara düzgün riayət etməsinə nəzarət etməlidir. Məhkəmənin bu 4 dövlət orqanı adından hansısa qərar çıxarmaq səlahiyyəti yoxdur. Məhkəmə hər hansı bir qərarı ancaq və ancaq qanun adından çıxara bilər və çıxarmalıdır.*

*İkinci bir məsələ isə, dövlət mexanizminin 4 qolunun istər MPM, İPM, CPM, istənilən qərarı, hətta dövlətin bütün qollarının xarici ölkələrlə qarşılıqlı əlaqələri, istisnasız olaraq dövlətin qanunlarının məzmun və mahiyyətinin mütləq çərçivəsi olan Konstitusiyanın tələblərindən kənara çıxa bilməz. Yəni, cəzadan yaxa qurtara bilməz. Müəllif bu amili nəzərə almadan ölkənin məhkəmə sisteminin müxtəlif orqanlarının əməkldaşlarının Konstitusiyada təsbit olunmuş qanunları pozmaqla cəzasız qalmasının səbəblərini Konstitusiyanın özündə axtarmaq əvəzinə, “günah keçisi” kimi gördüyü konkret hakimlərin peşə fəaliyyətində axtarır. O, hakimlərin qanunlarda göstərilən prosessual qaydalara əməl etməməsini Konstitusiyaya hörmətsizlik hesab edərək, hətta Ali Məhkəmə hakimlərinin prosessual qanunvericiliyə deyil, qeyri-prosessual ilişkiyə üstünlük verdiklərinin səbəbini isə, - “Bunu necə anlayaq, tələbkarın hüququ yoxdur?” - sualına cavab almaq üçün sadə oxucuya ünvanlayır. Lakin, Məşədi İbad demişkən, - “Tarix Nadiri yarıya qədər oxumuş” peşəkar hüquqşünasın mürəkkəb hüquqi sistemin qlobal eybəcərliyini görə bilmədiyi və ya görmək istəmədiyi halda, qanunun, Konstitusiyanın, hətta hüququn məzmun və mahiyyətindən xəbəri olmayan sadə oxucunun bu suallara cavab tapa bilməyəcəyinin fərqinə varmır. Əslində isə bütün bu suallara axtarıb cavab taparaq, oxucuları da hüquqi sahədə marifləndirmək, məhz peşəkar hüquqşünasların peşə, vəzifə və şərəf borcudur.*

*İndi isə, baxıb görək Azərbaycanın Məğrur Bədəlsoyun istinad etdiyi Konstitusiyası, ondan irəli gəlib, qanunverici orqanın qəbul etdiyi konkret qanunlar və bu qanunların tətbiq edilməsinin prosessual qaydalarına bütün hallarda mütləq və icbari olaraq əməl edilməsini təmin edən məzmun və statusa malikdirmi?*

***(Ardı var)***

**Şapur QASİMİ**

# Hakimlərin süni intellektlə əvəzlənməsi...

## Çox hakimlər kimi vicdanı olmasa da, süni intellektin qərəzi də yoxdur



> “Ədalət mühakiməsini Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına tam uyğun olaraq, qərəzsiz, ədalətlə həyata keçirəcəyimə, hakimin müstəqilliyini və ləyaqətini qoruyub saxlayacağıma, yüksək hakim adına hörmət ruhunda davranmağıma and içirəm”. Bu, Azərbaycan Bayrağı önündə hakimin içdiyi anddır.

Nə yazıq, çox hakimlər yüksək hakim adını, andını 3-5 manatın qarşılığında elə ləkələyir ki, (hakim gələndə) insan QALXMAQ , UCALMAQ yerinə, utandığından YERƏ GİRMƏYƏ can atır. “Elektron məhkəmə” sisteminin tətbiqi də dada çatmadı, məhkəmələr bu sistemi özbaşınalıqlarına alət edib, şəbəkə cinayəti ilə hətta iddiaları, şikayətləri saxtalaşdırır, məhkəməyə müraciətdən imtina edirlər.

Təsəvvür edin, Bakı Apellyasiya Məhkəməsinin (Xumar Mərdanova, Vahid Sadıqov, Sabit Bəhrəmzadə) bu sətirlərin yazarı 1-ci dərəcəli Qarabağ qazisini əlil yatağında məhkəməyə iddia (?-apellyasiya instansiyasına iddia verilmir- M.B.) verdiyinə görə 400 manat cərimə etməsindən Yasamal məhkəməsində ƏLİL, QAZİ ADININ müdafiəsi ilə bağlı qaldırılan iddianın tələb hissəsini məhkəmə sədri (?-sədrin razılığı olmadan bu cinayətə heç kim getməz- M. B.) sildirib. Təbii ki, cavabdeh Bakı AM-in həmkar sifarişi ilə. Yasamal məhkəməsinin (h. Aytəkin Əsədzadə) ərizənin qəbulundan “iddia tələbinin olmaması” əsası ilə imtina qərardadından şikayət cavabdehin özünə, yüksək hakim adını 400 manatlıq cərimə aktı ilə aşağılayan “troyka”ya sədrin TƏSADÜFİ SEÇİMİ ilə verilib. (Bütün şikayətlər TƏSADÜFİ SEÇİMLƏ Xumar Mərdanova, Sabit Bəhrəmzadə, Vahid Sadıqov və Rafael Eyvazov (Fuad Abdıyev), Fuad Babayev, Cəmilə Musayeva üçlüklərinə verilir) Ali Məhkəmə etirazı təmin edərək (axırı, bircə dəfə etiraza baxılıb) işi Sumqayıt Apellyasiya Məhkəməsinə göndərib.

Bu arada cavabdeh (Fuad Abdıyev, Fuad Babayev, Cəmilə Musayeva) iddiaçı qazini məhkəməyə VƏKİLLƏ TƏMİNATINA ərizə verdiyinə görə 100 manat da cərimə edib. (?). Lakin Sumqayıt AM (s/e Afiq Hüseynzadə, Fuad Məmmədov, Səyyad Qafari) nə şəbəkə cinayətinə qiymət verib, nə şikayətin dəlillərinə baxıb; kassasiya hüququnun olmadığını da qərara alaraq həmkarlıq hakimliyi ilə “bakılı” kolleqalarının apellyasiya dələduzluğunu” qüvvədə saxlayıb. İndi yolumuz Konstitusiya Məhkəməsinədir, di gəl, o da bəhanə tapacaq ki, yalnız (?) Ali Məhkəmənin qərarlarından şikayətlərə baxır. Ya da şikayəti it-bata salacaq. Ali Məhkəmənin İnzibati Kollegiyasının məhkəmə təminatı, hüquqi yardım hüququna qadağa qoyan 3 aktından şikayətin 3-ü də 1,5 ildir “yoxa çıxıb”.

Məhkəmə qərarlarının icra olunmamasının günahı da hakim qərəzindən, “vicdan terrorundan” qaynaqlanır. Məhkəmə (hakimləri) qəbul etdiyi qərarın icrasını nəinki təmin edir, əksinə icraya da, tələbkarın ərizəsinin qəbuluna da qadağa qoyur. Amma Qarabağ qazisinin yatağında 400 +300 +100 manat cərimə edilməsinə 3 saxta İCRA SƏNƏDİ ANINDA tərtib edilir, GECƏ İLƏ İCRA MƏMURU (Sevinc Qurbanova, Əlihüseyn Aslanov) İCRAATA BAŞLAYIR!(??). Özü də “Elektron məhkəmə” sistemində məhkəmə qərarlarının icrası üçün çevik mexanizm yaradılmayıb, amma hakimlər özləri istədikdə anında sistemdə icra vərəqi də yerləşdirir, onu icraya da yönəldir. Bəs sıradan tələbkar 17-ci ildir icra olunmayan 10 (!) məhkəmə qərarının icrasına necə nail olsun? “Elektron məhkəmə” sistemi heç ərizələri qəbul etmir, heç qəbul edəndə də işin növünü “məhkəmə qərarlarının icrası” kimi qeydə almır, hansı elektron əlçatanlıqdan danışmaq olar?

> Fikrimizcə, məhkəmə hüquq sistemində süni intellektin tətbiqi qaçılmazdır. Həm ədalət zəfər çalar, həm də büdcə qazanar. Özünüz hesablayın, rəsmi statistika 800 hakim (648-i fəaliyyət göstərir) ştatını qeydə alıb, texniki işçilərlə birlikdə 2000 nəfər büdcədən ayda ortalıq 10 milyon manat, ildə 120 milyon manat gəlir əldə edir. Ədalətə gəldikdə isə məhkəmələrin çoxu vicdan hissini itirir, qərəzini işə salır, süni intellektin isə vicdanı olmasa da, qərəzi də yoxdur, “beyninə” yerləşdirilən Konstitusiya maddələrinə, yerli və beynəlxalq aktlara uyğun obyektiv qərar çıxaracağı şübhəsizdir...

Fikrimizcə, məhkəmə hüquq sistemində süni intellektin tətbiqi qaçılmazdır. Həm ədalət zəfər çalar, həm də büdcə qazanar. Özünüz hesablayın, rəsmi statistika 800 hakim (648-i fəaliyyət göstərir) ştatını qeydə alıb, texniki işçilərlə birlikdə 2000 nəfər büdcədən ayda ortalıq 10 milyon manat, ildə 120 milyon manat gəlir əldə edir. Ədalətə gəldikdə isə məhkəmələrin çoxu vicdan hissini itirir, qərəzini işə salır, süni intellektin isə vicdanı olmasa da, qərəzi də yoxdur, “beyninə” yerləşdirilən Konstitusiya maddələrinə, yerli və beynəlxalq aktlara uyğun obyektiv qərar çıxaracağı şübhəsizdir. Bir də onsuz da məhkəmə icraatı tərəflər çağırılmadan yazılı qaydada həyata keçirilirsə, hakim nəyi araşdırır, vəkilin məcburi iştirakı nəyə gərəkir? Futbolda olduğu kimi VAR -MHŞ (MƏHKƏMƏ HÜQUQ ŞURASI) da operativlik bir yana, heç yardıma çatmır, hakimlər normativ aktları, Konstitusiyanı qərəzlərinə uyğun eybəcər şəklə salırlar, hətta kassasiya şikayəti vermək üçün vəkil ayrılmasından da qərəzlə imtina edirlər.

Qərəzə baxın, Nəsimi məhkəməsinin hakimi Vüsalə Musayeva ABB-yə qarşı işdə ərizə verilmədiyi halda iddiaçı Qarabağ qazisinə dövlət hesabına vəkil (Ayaz Məmmədzadə) ayırıb və “məhkumun müdafiəsi adına” büdcədən göstərilməyən xidmətə görə 77 manat yeyilib. Bakı AM-in MKsı (s/e Rafael Eyvazov, Fuad Babayev, Cəmilə Musayeva) isə nə qərəzli tərkibə edilən etiraza (məhkəməyə müraciətə görə 400 manat, hüquqi yardım istədiyinə görə 100 manatlıq cərimə tətbiq edən heyətdən qərəzdən özgə nə gözləmək olar?) baxılıb, nə də kassasiya şikayəti verməyə vəkil ayırmır ki, büdcə ziyan çəkəcək, Qarabağ qazisinin pensiyası, gəlirləri vəkilin göstərmədiyi xidmətin haqqını ödəməyə çatar. Süni intellekt belə qərəzli ayrı-seçkilik edər? Əsla!

Xumar Mərdanova, Vahid Sadıqov (s/e), Sabit Bəhrəmzadə üçlüyü kassasiya hüququna qadağanın daha “effektiv” növünü tapıb. İddianın qiymətini, predmetini iddiaçı müəyyən etdiyi halda , özləri predmeti də, qiyməti də özbaşına dəyişib kassasiya şikayətinin nəzərdə tutulmadığını qərara alıb. Halbuki iddianın predmetini cavabdeh Bakı mobil operatorunun əlil-istehlakçı hüququnu pozmasından dəyən maddi-mənəvi ziyanın ödənilməsi təşkil edir. İlginc özbaşınalıq odur ki, Vahid Sadıqov eyni işdə bir il qabaq da sədrlik edən hakim olub, indi də. Ötən il də cavabdehə vəkillik edib, bu il də. Hər ikisində cavabdeh məhkəməni uzaqdan idarə edib. Süni intellekt qıraqdan idarə oluna bilər? Əsla!

Faktlar çoxdur, hamısını sadalasaq, bir qəzet səhifəsinə sığmaz. Bircə onu vurğulayaq ki, Nizami məhkəməsinin kommersant hakimi Qumru Əliyeva (VÖEN 1400028632) həmin mobil operatorun vurduğu ortalıq 100 manatlıq ziyanı tələb edən iddiaçını üçqat 300 manat cərimə edib ki, süründürməçiliyə görə hakimə etirazı şəxsi kabinetdən təqdim edib. (?) Necə deyərlər, nə yemisən, turşulu aş. Məhkəməyə pozulmuş hüququnu müdafiə etməyə ərizə verirsən və nəinki müdafiə olunursan, əksinə, üçqat məbləğdə cərimə olunursan. Bunun nəyi məhkəmə müdafiəsi oldu? Süni intellekt belə qərəz göstərər? Əsla!

İndi söz “ASAN”ın yaradıcısı MHŞ sədrinindir: MƏHKƏMƏ HÜQUQ SİSTEMİNİ “ASAN” ETMƏK, SÜNİ İNTELLEKTİ TƏTBİQ ETMƏK OLARMI? Əsla “əsla” deməyin!

**Məğrur BƏDƏLSOY**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması

# Cəmiyyətdə qadınların rolu

## Psixoloq Aygün Elşadqızı: "Sağlam ailə sağlam gələcək deməkdir. Çalışıb ailəmizi sağlam qurmalıyıq ki, gələcəyə sağlam baxan övladlarımız olsun"



**Dəfələrlə şahidi olmuşuq ki, bəzi hallarda cəmiyyətimiz qadına qarşı haqsızlıqlara göz yumur. İnsanlar bu faktı ya gözməzlikdən gəlir, ya da “belə də olmalıdır” düşüncəsi ilə ədalətsizliyə qarşı çıxmaq yerinə, əksinə, ona haqq qazandırmağa çalışır.**

Təəssüf ki, bu, illərdir belə davam edir. Hətta cəmiyyətimizin ölüm hallarına belə, biganəliyi danılmazdır. Məsələn, hansısa qadın öldürülübsə, hər kəs hadisəni dərhal özünəməxsus şəkildə yozmağa çalışır, bəziləri isə “görünür, bir səbəb var ki, öldürülüb” deyəcəq qədər irəli gedirlər.

Məhz bu cür yanaşma ilə də günümüzdə günahsız, əsassız yerə ləkələnən qadınların sayı günbəgün çoxalır.

Bildiyimiz kimi, ölkəmizdə işləməyən, kimlərinsə “əsarəti altında” olan qadınlar da çoxdur. Onların əksəriyyəti risqdən qaçır, bəziləri isə qorxurlar. Kimisi atasından, kimi ərindən, kimisi də qaynana təhdiqlərindən çəkinərək, basqı altında yaşamağa məcbur olurlar.

Hətta müxtəlif səbəblərdən sosial mediadan belə, uzaq saxlanılan qadınlar var. Bəlkə də bu yazı kimlərəsə xoş gəlməyəcək. Haqlı olaraq deyəcəksiniz ki, sosial mediada olan, “azad olan” bəzi qadınları da görürük. Amma bu, ayrı bir mövzudur.

Evdar qadınlar cəmiyyətin mühüm təbəqəsini təşkil etməkdədir. Onların məsuliyyəti digərlərindən daha çoxdur. Ailənin qayğısına qalır, uşaqların tərbiyəsi ilə məşğul olur, həmçinin ev işləri ilə də məşğul olurlar. Lakin könül istər ki, Azərbaycanda savadsız, təsir altında qalan qadın olmasın.

Evdar qadınların özlərini inkişaf etdirmək istəməsi cəmiyyət üçün də müsbət qarşılanar. Qıraqdan ona dəstək olmağa da çalışarlar. Evdar qadınlar distant təhsil, onlayn kurslar, kitab oxumaq və əl işləri ilə məşğul olmaqla bilik və bacarıqlarını artıra bilərlər. Bu zaman psixoloji olaraq özlərini daha dəyərli hesab edəcəklər. Bu addımlar gələcəkdə iqtisadi baxımdan daha müstəqil ola bilmələri üçün vacibdir.

Dövlət və qeyri-hökumət təşkilatlarının evdar qadınlara yönəlik təlimlər və layihələr təşkil etməsi də onların sosial həyatda daha fəal olmasına şərait yaradır.

Onu da qeyd edək ki, savadlı evdar qadınlarımız da çoxluq təşkil edir. Evdar qadınların inkişafı yalnız fərdi yox, həm də ictimai bir məsələdir. Qadınlarımızın bilikli, güclü olması ailənin rifahına, dövlətimizin gələcəyi olan uşaqların, gənclərin daha sağlam böyüməsinə birbaşa səbəbdir.

Təsadüfi deyil ki, evdar qadınların inkişafı üçün dövlətimiz tərəfindən də bir çox tədbirlər görülür və görülməkdədir.

Bəzi psixoloqların fikrinə görə, evdar xanımların 30-40 faizi özünəqapanıqlı olurlar. Hansı ki, bu qadınlar hər xırda problemi böyüdə bilirlər. Lakin bəzi qadınlar da var ki, onlar müxtəlif məşğuliyyət sahəsində çalışaraq - şirniyyat bişirərək, şəkil çəkərək, düzgün məsləhətlər alaraq və s. bu kimi sıxıntılardan azad olurlar. Enerjilərini məhz bu yöndə istifadə edirlər.

Yeri gəlmişkən, bəzi ölkələrdə evdar qadınların əməyini daha yüksək qiymətləndirmək üçün onlara xüsusi vəsait ayrılır. Bu hal onları ruhlandırır və özlərini əzilmiş, zəif xarakter kimi hiss etmirlər.

Əlbəttə, günümüzdə kişilərin əksəriyyəti qadınları evdə görmək istəyirlər. Onların fikrincə, qadınlar ancaq ailə və ev işləri ilə məşğul olmalıdırlar. Əgər bir kişi evini maddi cəhətdən tam idarə edə bilirsə, fikirləşir ki, onun qadını işləməyə bilər.

Şübhəszi, ev işləri kifayət qədər ağırdır və fiziki güc tələb edir. Amma ən yanlışı odur ki, “qadın” deyəndə cəmiyyətdə ağlagələn ilk şey “ev işi” olur. Düşünülür ki, qadınsansa, sən ev işinin bütün növlərini bacarmalısan. Bacarmayanda da “sən necə qadınsan ki, ev işini bacarmırsan?” - kimi fikirlər səsləndirilir.

Məlumat üçün onu da qeyd edək ki, Azərbaycanda BMT-nin İnkişaf Proqramı çərçivəsində müvafiq layihələr həyata keçirilir. Layihə nəticəsində Azərbaycanın bir neçə kənd və rayon yerlərində yaşayan qadınların iqtisadi və sosial həyatda iştirakçılığının təşviqi, texniki yardım layihəsi həyata keçirilir. Bu yerlərdə yaradılan qadın resurs mərkəzləri bilavasitə qadınların iştirakçılığının təmin edilməsi üçün sistemli şəkildə iş aparır.

Qadınların siyasi fəallığına gəldikdə isə müstəqilliyin ilk illərindən qadınlar kişilərdən geri qalmayıblar. Hazırda minlərlə qadın müxtəlif siyasi partiyaların, sıravi və siyasi şuralarının üzvləridilər.

Məsələ ilə bağlı psixoloq Aygün Elşadqızı ilə həmsöhbət olduq. Onun fikrincə, qadınlar iş bacarıqlarına görə kişilərdən daha üstündür: “Hər bir insan fikirləşməlidir ki, yaşadığımız həyatın qonağıyıq. Bu gün varıq, sabah yoxuq. Məhz bu səbəbi unutmayıb, mehriban yaşamaq lazımdır. Qəlb qırmaq, kimisə ağlatmaq, onun üzərində hökmranlıq etmək olmaz. Biz müstəqil ölkədə yaşayırıq.

Məsələ ilə bağlı psixoloq Aygün Elşadqızı ilə həmsöhbət olduq. Onun fikrincə, qadınlar iş bacarıqlarına görə kişilərdən daha üstündür: “Hər bir insan fikirləşməlidir ki, yaşadığımız həyatın qonağıyıq. Bu gün varıq, sabah yoxuq. Məhz bu səbəbi unutmayıb, mehriban yaşamaq lazımdır. Qəlb qırmaq, kimisə ağlatmaq, onun üzərində hökmranlıq etmək olmaz. Biz müstəqil ölkədə yaşayırıq. Mənə görə, qadınlar iş bacarıqlarına görə kişilərdən daha üstündürlər. Qadının bacarmayacağı heç nə yoxdur. Təhsil alan, müxtəlif faydalı sahələrlə məşğul olan qadınlarımız çoxdur. Bu isə sevindirici haldır”....

Mənə görə, qadınlar iş bacarıqlarına görə kişilərdən daha üstündürlər. Qadının bacarmayacağı heç nə yoxdur. Təhsil alan, müxtəlif faydalı sahələrlə məşğul olan qadınlarımız çoxdur. Bu isə sevindirici haldır”.

Bununla belə, psixoloq qadınların daima inkişafa meyl etməli olduğunu da bildirir: “Hər bir insan öz üzərində işləməlidir. Mən psixoloq işləyirəmsə, bununla yetinməməliyəm. Digər sahələrə də maraq göstərib, araşdırmalıyam. Mənim əsil sənətim psixoloqluq olsa da, həmçinin, dərzilik fəaliyyəti ilə də məşğul oluram. İmkan vermirəm ki, hansısa fikir, xəstəlik məni tapsın. Bu o demək deyil ki, mənim problemlərim yoxdur. Sadəcə, bacarıb neqativ hadisələri, hissləri içimizə buraxmamalıyıq.

Qəbulumda olan xəstələrədən biri deyir ki, qonşumun yoldaşı hər gün işə gedəndə yoldaşı ilə qucaqlaşıb sağollaşır, bizimki də qapını çırpır gedir. Xanım özündə günah görmür. Səhv anlamayın, mən demirəm ki, hər zaman günah qadınlardadır. Amma təəssüf ki, günahın 50 faiz qadınlardadır. Qadın yoldaşını evə bağlamalıdır. Qadın böyük qüvvədir. Sevgi göstərsə sevgi görər.

Bəlkə də bəziləri bu müsahibəni oxuyanda deyəcək ki, Aygün xanım kişilərin haqqlarını müdafiə edir. Mən sadəcə düzünü göstərməyə çalışıram. Söhbət normal kişi və qadından gedir. Əlbəttə ki, psixologiyası pozulmuş şəxslərə aid edilə bilməz”.

Aygün Elşadqızı bəzi qadınların özünə qapanmasının səbəbləri haqda da danışdı: “Özünəqapanıqlıq təkcə evdar qadınlarda yox, hər bir insanda ola bilər. Müəyyən problemlər var ki, biz onları tək yaşamaq istəyirik. Bu zaman isə qıraqdan özünəqapanmış insan kimi görünürük.

Fiziki cəhətdən çökmüş insanlarda da özünəqapanma halları çox olur. Düşünürəm ki, belə insanlar mütləq yardım almalıdırlar.

Sağlam ailə sağlam gələcək deməkdir. Çalışıb ailəmizi sağlam qurmalıyıq, gələcəyə sağlam baxan övladlarımız olsun”.

**“Hürriyyət”**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında çap olunur

# Bir mənzil 4 dəfə hərraca çıxarılırsa...

## Ali Məhkəmə sədrinə müraciət edən paytaxt sakini mənzilinin qanunsuz yollarla ələ keçirildiyini bildirir

Bakı şəhəri, Xətai rayonu, Q.Nəbi küçəsi 2, mənzil 177 ünvanında olan şəxsi evindən qanunsuz yollarla çıxarılan Hacıyev Nurəddin Höccət oğlu və ailə üzvləri tərəfindən "Hürriyyət"in redaksiyasına şikayət məktubu daxil olub. Qəzetimiz vasitəsilə Ali Məhkəmənin sədri İnam Kərimova müraciət edən N.Hacıyevin məktubunu olduğu kimi dərc edirik:



**"Hörmətli sədr!**

"Daşınar və Daşınmaz əmlakların satışı üzrə Hərrac Mərkəzi" MMC tərəfindən ipoteka predmeti olan şəxsi əmlakım Azərbaycan Respublikasının "İpoteka haqqında" qanununa əsasən, 17.02.2020-ci il və 16.03.2020-ci il tarixdə keçirilən hərraclar barədə müvafiq elanlar "Birja" qazetinin 17-23 yanvar 2020-ci il tarixli 201-ci sayın və 06-12 mart 2020-ci il tarixli 208 saylı nömrəsində verilməklə, həmin tarixlərdə keçiriləcək hərraclar barədə qarşı tərəflərə bildirişlər göndərməklə təyin edilmiş hərracla keçirilmişdir. Bununla belə, hərrac mərkəzi tərəfindən yenidən 28.09.2020-ci il tarixdə ilkin hərrac təyin edilmiş və keçirilmişdir.

Qeyd olunanlarla əlaqədar Nərimanov rayon Məhkəməsinə iddia ərizəmlə müraciət etdim. Verdiyim iddia ərizəm məhkəmənin hakimi Səbinə Nuriyevanın icraatına verildi. Hakim Səbinə Nuriyeva tərəfindən qəbul edilmiş 02.07.2025-ci il tarixli 2(005)-1614/ 2025 saylı qətnamə ilə verdiyim iddiam təmin edilməmişdir. Səbəb olaraq aşağıdakılar göstərilmişdir:

- "Məhkəmə iddiaçının "ilkin hərrac 17.02.2020- çi il tarixə, təkrar hərrac isə 16.03.2020-ci il tarixə təyin edilsə də, sonradan bir daha həmin mənzilə dair 28.09.2020-ci il tarixə və 12.10.2020-ci il tarixə növbəti hərraclar təyin edilməsi, hərracların pandemiya ilə əlaqədar keçirilməməsinin əsassız olması və s." dəlillərini əsaslı hesab etmir. Belə ki, həmin halın ortaya çıxmasına səbəb müvafiq dövrdə ölkədə elan edilmiş karantin rejimi olmuşdur".

- "Koronovirus (COVİD-19) infeksiyasının Azərbaycan Respublikasının ərazisində geniş yayılmasının qarşısının alınmasına dair əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 mart tarixli, 120 nömrəli qərarı ilə Respublikada karantin rejiminin elan olunması, ölkə daxilində müxtəlif fəaliyyət növlərinin həyata keçirilməsinə qadağan edilməsi Mülki Prosessual Məcəllənin 82.1-ci maddəsinə əsasən, sübuta ehtiyac olmayan haldır. Belə olan təqdirdə isə qeyd olunan hal keçirilmiş hərracın nəticələrinin etibarsızlığı üçün əsas ola bilməsi".

- "İddiaçı iddiasını əsaslı edən müvafiq sübutları məhkəməyə təqdim edə bilməmiş, mövcud sübutlar məhkəmədə araşdırılmış qarşılıqlı tətbiq edilmiş işin faktiki halları ilə tanış olaraq, öz hüquqi təsdiqini tapmamışdır".

- "Əksinə məhkəmə tərəfindən müəyyən olunmuşdur ki, Bakı şəhəri, Xətai rayonu Qaçaq Nəbi küçəsi 2, mənzil 177 ünvanında yerləşən mənzilin açıq hərracda satılması "Daşınar və Daşınmaz əmlakların satışı üzrə Hərrac Mərkəzi" MMC tərəfindən hərraca aid qanununvericiliyin tələblərinə uyğun olaraq keçirilmiş, Hərrac Mərkəzi hərracın keçirilməsində haqlı olmuşdur, İddiaçı tərəfindən məhkəmə araşdırması zamanı müəyyən olunmuş hərracların təkzib edəcək sübutları məhkəməyə təqdim etməmiş, həmçinin məhkəmə araşdırılması zamanı iddia tələbinin əsaslı olmasına dair sübutlar aşkar edilməmişdir".

**Hörmətli sədr!**

17.02.2020-ci ildə və 16.03.202-ci ildə keçirilmiş hərracların KİV-də dərc olunmuş elanların, qeyd olunmuş tarixlərdə keçirilmiş hərracların qarşı tərəfə göndərilən bildirişlərin, hərracların keçirilməsinə əsas Azərbaycan Respublikasının "İpoteka haqqında" olan qanunun, Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin 28 oktyabr 2014-cü il tarixli qərarı, Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Koronavirus" ( COVİD-19) infeksiyasının Azərbaycan Respublikasının ərazisində geniş yayılmasının qarşısının alınmasına dair əlavə tədbirlər haqqında" 30 mart 2020-ci il tarixli, 120 nömrəli qərarı sübut deyil, bəs nədir? Bunlardan da möhtəbər sübüt varmı?

Nərimanov Rayon Məhkəməsinin hakimi Səbinə Nuriyeva tərəfindən qəbul edilmiş qətnaməni aldıqdan sonra internetdə apardığım müvafiq araşdırma zamanı müəyyən etdim ki, sizin tərəfinizdən imzalanmış "İpoteka haqqında" Azərbaycan Respublikası qanununun 43-cü maddəsinə əsasən, 2 hərracın keçirilməsi nəzərdə tutulmuşdur. Həmçinin, Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi Plenumunun "İpoteka haqqında" Azərbaycan Respublikası qanununun 43.4, 43-8-ci və 48-ci maddələrinin şərh edilməsinə dair 28 oktyabr 2014-cü il tarixli qərarı "İpoteka haqqında" Azərbaycan Respublikası Qanunu"-nun 43-cü maddəsində yalnız iki hərracın keçirilməsi nəzərdə tutulduğundan, hər hansı əsaslarla yeni hərracın keçirilməsi həmin qanuna zidd hesab edilmədir.

**Hörmətli sədr!**

Hakim Səbinə Nuriyevanın qəbul etdiyi 02.07.2025-ci il tarixli qətnamədə qeyd edir ki, "Koronovirus (COVİD- 19) infeksiyasının qarşısının alınmasına dair əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 mart tarixli, 120 nömrəli qərarı ilə Respublikada karantin rejimi elan olunmuşdur". Onda, cənab Prezident 17.02.2020-ci il və 16.03.2020-ci il tarixlərdə keçirilmiş hərraclarln pandemiya ilə nə əlaqəsi olar?! Axı, hakim 17.02.2020-ci il və 16.03.2020-ci il tarixlərini nədən pandemiya dövrünə aid edir?!

Hakim Səbinə Nuriyeva qanun və qərarların tətbiqinə iki amil təsir edə bilər:

- Birincisi, deməzdim savadsızdır, çünki imtahan verib, hakimlik statusunu qazanıb.

- İkincisi, ya kənar təsir altında bu qərəzli və saxta qətnaməni qəbul edib, ya da "məqsədli" bu yolu seçib.

**Hörmətli sədr!**

Yazdığım bu amillərin ayırd edilməsi və hakim barədə qanunamüvafiq tədbir görülməsi Sizin tabeliyinizdə olan işçilərin baş vermiş bu qanunsuzluqlar barədə sizə necə məruzə edilməsindən asılıdır. Çox ümidvaram ki, haqq-ədalət öz yerini tez tapacaqdır.

Azərbaycan Respublikasının "İpoteka haqqında" qanununun, Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin 28 oktyabr 2014-cü il tarixli qərarı, Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Koronavirus" ( COVİD-19) infeksiyasının Azərbaycan Respublikasının ərazisində geniş yayılmasının qarşısının alınmasına dair əlavə tədbirlər haqqında" 30 mart 2020-ci il tarixli 120 nömrəli qərarında qeyd olunanlara zidd olaraq, "Daşınar və daşınmaz əmlakların satışı üzrə Hərrac Mərkəzi" MMC-nin rəhbəri təkrarən 28.09.2020-ci il tarixə və 12.10.2020-ci il tarixə müvafiq olaraq 3-cü və 4-cü hərraclar keçirməklə, Nərimanov Rayon Məhkəməsinin hakimi Səbinə Nuriyeva da Hərrac Mərkəzinin rəhbərinə qoşularaq, qanundan kənar 02.07.2025-ci il tarixli qətnamə qəbul etmişdir.

Belə olan halda hakimlik institutu nəyə lazımdır?! Yaxşı olar ki, hakimlərin səlahiyyətlərini dövlət notariat kontorlarına verməklə, həm sənədlərin düzgünlüyünü təsdiq edərək vətəndaşların vaxt itkisinin qabağını almış olar, həm də vətəndaşlardan vergi formasında dövlət büdcəsinə yığılan vəsaitlərə qənaət olunmaqla, inzibati xərclər azalmış olardı.

İndiki halda isə bir sıra suallar meydana çıxır. Məsələn, biz Azərbaycan vətəndaşıyıqsa, yuxarıda sadaladıqlarım qanun və qərarlar niyə bizə şamil olunmur?

Düşünürəm ki, "İpoteka haqqında" Azərbaycan Respublikası qanununu, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi plenumunun "İpoteka haqqında "Azərbaycan Respublikası qanunun 43.4-48.8-ci və 48-ci maddələrin şərh edilməsinə dair 28 oktyabr 2014-cü il tarixli qərarı və Koronovirus ( COVİD-19) infeksiyasının Azərbaycan Respublikası ərazisində geniş yayılmasının qarşısının alınmasına dair əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 mart tarixli 120 nömrəli qərarların KİV-də dərc olunan variantı ilə orjinal variantı arasında fərqlər mövcuddur. Belə olmasaydı, hakim Səbinə Nuriyevanın qəbul etdiyi 02.07.2021-ci il tarixli qətnamədə qeyd etdiyim qanun və qərarlara istinad etməklə, hüquqi cəhətdən əsaslandırılmış qətnamə qəbul edərdi.

Əgər orjinal variantla KİV-də dərc olunan variant arasında fərq mövcuddursa, gələcək məhkəmələrdə istifadə etmək üçün orjinal surətlərin əldə edilməsi və ya hər hansı fərq mövcud deyilsə, onda hakim "məqsədli" qaydada qanun və qərarları saymadan qətnamə qəbul etdiyi üçün barəsində müvafiq tədbirlər görülməsini xahiş edirəm".

**Hazırladı: Jalə FAMİLQIZI**

**Redaksiyadan: Yazıda adları qeyd olunan şəxslərin və qurumların mövqeyini dərc etməyə hazırıq.**

# "Azərbaycan, Qazaxıstan



## Sərdar Cəlaloğlu: "Bakı və Moskva arasında əvvəlki münasibətləri bərpa etmək mümkün deyil"

**Azərbaycan Demokrat Partiyasının (ADP) sədri Sərdar Cəlaloğlu gündəmin aktual mövzuları ilə bağlı azpolitika.infi saytının suallarını cavablandırıb. "Hürriyyət" həmin müsahibəni oxucularına təqdim edir:**

***- Sərdar bəy, Türk Dövlətləri Təşkilatının (TDT) Qəbələdə keçirilmiş zirvə toplantısında Prezident İlham Əliyev birgə hərbi təlimlər keçirilməsini təklif etdi. Bu, ondan xəbər verir ki, Bakı bu təşkilatın gələcəkdə daha sıx inteqrasiyasını, hərbi-təhlükəsizlik sahəsində dərin əməkdaşlıq içərsində olmasını istəyir. Siz təşkilatın perspektivinə necə baxırsınız?***

- Əvvəl onu deyim ki, Türk Dövlətləri Təşkilatı iqtisadi sferada müəyyən ortaq layihələr həyata keçirmək istəyirsə, ortaq maraqları müdafiə etmək üçün təbii ki, ortaq müdafiə gücü yaratmalıdır. Məncə, bir nömrəli vəzifə budur. Bu gün dövlətlərin hamısı üçün xarici təhdid var: Rusiya Özbəkistanı təhdid edir, Azərbaycan, Qazaxıstan təhdid altındadır, Türkiyəyə müəyyən təhdidlər var. Bu o deməkdir ki, bu dövlətlər üçün ən vacib məsələ hərbi təhlükəsizliyin təmin edilməsidir. Təbii ki, ayrı-ayrı dövlətlər, Türkiyə istisna olmaqla, qeyri-adi bir güc ortaya qoya bilməzlər. Amma bu dövlətlər öz güclərini və potensiallarını bir araya gətirdikdə, dünyada ikinci, üçüncü hərbi güc mərkəzinə çevrilə bilərlər. Bu da o deməkdir ki, həmin hərbi güc mərkəzinin təsiri altında olan ərazilərdə daha yaxşı iqtisadi layihələr həyata keçirmək, daha müasir kommunikasiya imkanlarından istifadə etmək mümkün olacaq. Yəni, bütün digər məsələlərin təminatı da bu gücün mövcudluğundan asılıdır.

Ona görə də birinci vəzifə hərbi gücün - kollektiv təhlükəsizliyin təmin edilməsidir. Baxın, Avropa Birliyi yaranmamışdan qabaq nə yaranmışdı? NATO. NATO nə vaxt yarandı? Müharibə qurtaran kimi. Sonra iqtisadi birliklər, Avropa Şurası, ondan sonra ATƏT. Amma birinci nə yarandı? NATO. Dədə Qorqudun bir sözü var: "Bir torpağı qoruya bilməyəcəksənsə, onu əkib-becərməyə ehtiyac yoxdur". Yəni bu, bir nömrəli vəzifə olmalıdır.

Türk Dövlətləri Təşkilatına daxil olan dövlətlərin xarici təhdidlərdən effektiv qorunma mexanizmləri işlənməlidir. Bu gün dünyada çox ciddi bir problem də var, o da dünyanın silahlanmasıdır. İkinci Dünya müharibəsindən bu günə qədər Avropada silahlanma demək olar ki, 100 dəfə artıb. Amerika silahlanır, bütün ölkələr silahlanır, hamı hansısa üçüncü dünya müharibəsi təhdidinə hazırlaşır. Bu faktor da məcbur edir ki, ya türk dövlətləri ayrı-ayrılıqda öz hərbi potensiallarını artırsınlar, ya da ümumi, kollektiv şəkildə imkanlarını gücləndirsinlər. Buna görə də hesab edirəm ki, vahid hərbi gücün yaradılması - istər "Türk NATO-su", istərsə də "birləşmiş hərbi güc" adlandırılsın, çox vacib məsələdir.

***- Bu təklifə, yəni perspektivdə hərbi birliyin yaradılmasına Rusiyanın, Çinin və Avropanın hansı münasibət göstərəcəyi maraqlıdır. Çünki Rusiya TDT-nin bəzi üzvləri ilə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında təmsil olunur...***

- Bunu açıq şəkildə Kremlin baş ideoloqu Aleksandr Duqin də deyib: Türk Dövlətləri Təşkilatı rus dövlətinin maraqlarına ziddir. Bundan əvvəl isə Lavrov demişdi ki, biz də bu təşkilatda təmsil olunmaq istəyirik. Sual yaranır: niyə Rusiya orada təmsil olunmaq istəyir? Çünki Rusiya istəyir ki, Türk Dövlətləri Təşkilatının içərisində olsun, beləliklə, təşkilatın qərarvermə imkanına nəzarət etsin. TDT üçün ikinci ciddi məsələ ondan ibarətdir ki, təşkilat müəyyən gücə çevrildikdən sonra dünya türklərinin hüquqlarını qorumağa məcbur olacaq. Çünki dünyada asılı vəziyyətdə olan türklərin ən çox yaşadığı ölkə Rusiyadır. Deməli, Türk Dövlətləri Təşkilatı real gücə çevrildiyi halda, bütün türk dünyasının birləşməsi üçün əsas hədəf Rusiya olacaq. Həmçinin, təşkilata daxil olan bütün türk dövlətlərinin (Türkiyə istisna olmaqla) keçmiş SSRİ respublikaları olması baxımından, Rusiya bu qurumun güclənməsinin əleyhinədir.

Çinin isə mövqeyi bir qədər ikilidir. Bir tərəfdən, "Orta Dəhliz" layihəsinin işləməsi üçün belə bir təşkilatın mövcudluğu onun maraqlarına uyğundur. Digər tərəfdən, Çinin öz ərazisində də ciddi türk problemi var. Biz çox vaxt uyğurlardan danışırıq, amma Çində 150 milyonadək qeyri-uyğur türk də yaşayır. Tarixən də türkləri Çin özü üçün ən böyük təhlükə hesab edib. Buna görə də Çin bu təşkilatın yaranmasında tam şəkildə maraqlı deyil. Pakistanın da bu strukturda yer alması mümkündür. Lakin Pakistan Çinin strateji müttəfiqi olduğuna görə, Türk Dövlətləri Təşkilatına münasibətdə müəyyən fərqli mövqe nümayiş etdirə bilər. Geopolitik baxımdan isə Çin razı olmaz ki, onun sərhədlərində nəhəng bir güc formalaşsın. Çünki əgər türk dövlətləri birləşərsə, onların hərbi potensialı Çinin gücünü neytrallaşdıra biləcək səviyyəyə çatar. Pakistan da bu birliyə qoşulsa, artıq bu güc Çinə bərabər olacaq. Çin hazırda Asiyada hegemon mövqeyə sahibdir və Hindistanla rəqabət aparır. Bu rəqabətin əsas səbəbi də Asiyada hegemonluq uğrunda mübarizədir. Hegemonluq, onsuz da, Çinin xarici siyasətinin "qırmızı xətti"dir.

Çinin isə mövqeyi bir qədər ikilidir. Bir tərəfdən, "Orta Dəhliz" layihəsinin işləməsi üçün belə bir təşkilatın mövcudluğu onun maraqlarına uyğundur. Digər tərəfdən, Çinin öz ərazisində də ciddi türk problemi var. Biz çox vaxt uyğurlardan danışırıq, amma Çində 150 milyonadək qeyri-uyğur türk də yaşayır. Tarixən də türkləri Çin özü üçün ən böyük təhlükə hesab edib. Buna görə də Çin bu təşkilatın yaranmasında tam şəkildə maraqlı deyil. Pakistanın da bu strukturda yer alması mümkündür. Lakin Pakistan Çinin strateji müttəfiqi olduğuna görə, Türk Dövlətləri Təşkilatına münasibətdə müəyyən fərqli mövqe nümayiş etdirə bilər...

***- Bəs Avropa və ABŞ?***

- Rusiya və Çini neytrallaşdırmaq məqsədilə ABŞ Türk Dövlətləri Təşkilatının yaranmasında maraqlı ola bilər. Həmçinin, "Orta Dəhliz"in effektiv işləməsi üçün də bu birlik Amerikanın maraqlarına uyğundur. Amma Türk Dövlətləri Təşkilatı hərbi baxımdan qlobal siyasi gücə çevrilsə, Avropa bunun irəli getməsinə tam razılıq verməz. Amerikanın mövqeyinə gəlincə, o, nə qədər güclənsə də, nəticə etibarilə bu prosesə qarşı çıxmayacaq. Türk Dövlətləri Təşkilatının güclənməsi, Rusiyanın və Çinin təsirinin azalması baxımından ABŞ-nin maraqlarına uyğundur. Əgər öz strateji maraqlarını düzgün hesablasa, ABŞ Türk Dövlətləri Təşkilatına əsaslı şəkildə dəstək verə bilər. Amerikanın Zəngəzur dəhlizinə nəzarət etməsi də təsadüfi deyil. Bu, həm də TDT-nin əlaqələrinə nəzarət etmək deməkdir. Çünki Türkiyənin Orta Asiya ilə birləşməsi üçün Ermənistan və Zəngəzur dəhlizi olduqca vacibdir.

***- Təbii ki, İran da seyirçi qalmayacaq...***

- Əlbəttə, İranın hansı mövqe tutacağı da nəzərə alınmalıdır. İran bu təşkilatın yaranmasında maraqlı deyil, çünki əhalisinin 50-60 faizi türklərdir. Qonşuluqda nəhəng bir türk birliyi formalaşarsa, Cənubi Azərbaycanın siyasi aktivliyi indikindən on qat artacaq. Hindistan da, təbii ki, Pakistan amilinə görə, bu birliyin əleyhinə olacaq. Avropa dövlətləri isə, yəqin ki, vahid mövqedən çıxış edəcəklər. Hələlik görünən odur ki, Türk Dövlətləri Təşkilatının inkişafına yalnız Amerika nisbətən loyal münasibət göstərir. Qalan böyük güclər isə türk dövlətlərinin vahid birliyə çevrilməsini istəməyəcəklər.

TDT-nin birliyə çevrilməsinin əsas səbəbi isə Ərdoğanın dediyi "Dünya beşdən böyükdür" ifadəsində əksini tapır. Türk dünyası "altıncı güc" olmaq istəyir. İkinci Dünya müharibəsindən sonra Fransa, Böyük Britaniya, Hindistan və Braziliya kifayət qədər gücləniblər və indi onlar da bu iddianı daşıyırlar. Əgər Türk Dövlətləri Təşkilatı İslam dünyasının diqqətini cəlb edə bilsə və bu xalqların maraqlarını müdafiə edən bir quruma çevrilsə, dünyanın ən böyük güclərindən birinə çevriləcək. Yəni, məqsəd budur və bu istiqamətdə gedilir.

***- Rusiyanın TDT-nin hərbi güc kimi formalaşmasına qarşı əsas ölkə olduğunu vurğuladınız. Amma nəzərə alaq ki, Rusiyanın çox ciddi problemləri var. Xüsusilə Ukrayna müharibəsinin necə bitməsi onun regiondakı mövcudluğunu müəyyənləşdirən faktordur. Bu barədə sizin müşahidələriniz nədən ibarətdir?***

- Onu deyim ki, ruslar müharibənin üç günə bitəcəyini düşündüklərinə görə bütün potensiallarını və hərbi sənaye sistemlərini ona uyğun qurmuşdular. Yəni hər şey "üç günlük əməliyyat" üçün planlaşdırılmışdı. Amma o "üç gün" artıq üç ilə çevrildi. Rusiyanın bu vəziyyətə düşməsinin əsas səbəbi də budur. Rusiyanın düşüncəsində hər şey qısa müddətli idi: "Üç günə Kiyevi alacağıq, bizi gül-çiçəklə qarşılayacaqlar". Amma indi vəziyyət tam fərqlidir. Tramp

# təhdid altındadır...”

## “NATO ilə Rusiya arasında birbaşa toqquşma mütləq olacaq... Bu, Putinin hakimiyyətdən getməsini labüd edir”

hakimiyyətə gələndə bir müddət Rusiya yeni əraziləri işğal etdi, böyük iddialar irəli sürdü, danışıqlar çətinləşdi. Amma mən o vaxt demişdim ki, Tramp çox qəribə siyasət aparır: əvvəl xoş münasibət göstərdiyi qüvvələrə sonradan ən sərt zərbəni vurur. Yadınızdadırsa, Tramp Putinə qarşı əvvəllər xoş bəyanatlar səsləndirirdi. Amma bir müddət sonra Amerika Ukraynanın əli ilə Rusiyanı faktiki diz çökəcək vəziyyətə gətirdi. Hazırda Rusiyanın siyasəti nədən ibarətdir? Rusiya anlayır ki, əgər Ukraynada məğlub olsa, gələcək dünya düzənində onun yeri qalmayacaq. Buna görə də elə bir vəziyyət yaratmaq istəyir ki, hamı onun məğlubiyyətinə haqq qazandırsın.

***- Daha böyük güclə qarşıdurmaya getmək?***

- Bəli. Hazırda Rusiyanın Avropada müxtəlif ölkələrdə yaratdığı təxribatlar, ABŞ-nin strateji maraqlarına qarşı çıxması, Trampı təhqir etməsi, nüvə silahı ilə hədələməsi - bütün bunlar eyni məqsədə xidmət edir: Qərbi qorxutmaq və özünü hələ də güclü göstərmək. Bu o deməkdir ki, Avropa Birliyi və Amerika artıq bu müharibədə Rusiya üçün sadəcə rəqib yox, faktiki qarşı tərəfdir. Gözlənilir ki, yaxın gələcəkdə Rusiya hansısa insident yaradacaq - məsələn, Finlandiya və ya Polşa istiqamətində. Ondan sonra danışıqlar artıq Ukrayna ilə yox, birbaşa ABŞ, Avropa və Rusiya arasında aparılacaq. Yəni, Ukrayna məsələsi arxa plana keçəcək. Putin müharibənin ilk günündən deyirdi ki, “biz NATO ilə vuruşa bilmərik, onlar bizdən güclüdür”. Amma indi elə vəziyyət yaranıb ki, faktiki NATO da bu müharibənin içindədir. Bu, Rusiyada daxili auditoriya üçün yaradılmış yanlış təəssüratı düzəltmək cəhdidir.

***- NATO ilə Rusiya arasında birbaşa toqquşma yaxın zamanlarda baş verə bilər?***

- Bu, sadəcə zaman məsələsidir. Amma mütləq olacaq. Başqa çıxış yolu yoxdur. Ukraynadan çıxmaq Rusiyanın məğlubiyyəti deməkdir. Çünki Ukrayna cəbhəsindəki vəziyyət Rusiyanın gələcəkdə dünya düzənində tutacağı yeri müəyyənləşdirəcək. Əgər Rusiya Ukraynada uduzarsa, sabah Fransa, İngiltərə, ABŞ kimi dövlətlər qarşısında da müqavimət göstərə bilməyəcək.

> “Türk Dövlətləri Təşkilatı İslam xalqların maraqlarını müdafiə edən bir quruma çevrilsə, dünyanın ən böyük güclərindən biri olacaq”

***- Bəs Ukraynanın taleyi necə olacaq?***

- Ukrayna indi çox ciddi maliyyə borcu içindədir və böyük dağıntılarla üzləşib. Yaxın 50 ildə Ukrayna Avropa dövlətləri üçün heç bir təhlükə yaratmayacaq. Əksinə, Avropaya daxil olacağı təqdirdə potensialı ilə bəzi dövlətləri narahat edə bilər.

Fransa və Almaniya Avropa Birliyinin aparıcı dövlətləridir, amma digər üzv ölkələrin nə iqtisadi gücü, nə əhali sayı, nə də hərbi potensialı Ukraynanın səviyyəsində deyil. Ukrayna həm hərbiləşmiş xalqdır, həm təxminən 40 milyon əhalisi var, həm də zəngin və strateji baxımdan üstün mövqeyə malik ərazidir.





Bu potensialla Ukrayna Avropa Birliyinə daxil olarsa, qısa müddətdə Avropada söz sahibi ölkələrdən birinə çevriləcək.

***- Müharibə bitərsə, Rusiya Ukrayna ərazisini tərk edəcək?***

- Rəqibini əgər nifrət saçan düşmənə çevirsən, o, sənin üçün daha təhlükəli düşmənə çevrilər. Vaxtilə türklər yunanlara qalib gələndə, Atatürk dərhal sülh müqaviləsini imzaladı. O baxır ki, yunan generalı başıaşağı vəziyyətdədir. Gülə-gülə onlara deyir ki, bəzən müharibədə zəif tərəfin qalib olması da mümkündür, burada qeyri-adi heç nə yoxdur. Yunanlar bir-birinə gülümsəyirlər, bundan sonra isə Türkiyə ilə Yunanıstan arasında çox xoş münasibətlər formalaşır.

Yəni, Rusiyanı elə məğlub etmək lazımdır ki, sonradan o, onu məğlub edən qüvvələrə qarşı qisas hissi ilə yaşamasın. Amerika Prezidenti Eyzenhauerin bir fikri var idi: “Məğlub dövlət iki cür olur - biri dost edilən, digəri isə düşmən kimi saxlanılan”. Amerika həmişə çalışıb ki, məğlub etdiyi dövlətlərə dostluq təklif etsin. Bu, həmin dövlətlərin məğlubiyyət kompleksindən xilas olmasına kömək edib. Amerika öz uzaqgörən siyasəti ilə bunu dəfələrlə sübut edib.

Müharibə bitəndən sonra qalib və ya məğlub olmasından asılı olmayaraq, qarşı tərəflə sülh imzalanır, münasibətlər bərpa olunur. Mən niyə Ermənistan məsələsində fərqli mövqe nümayiş etdirirəm? Çünki hesab edirəm ki, ermənilərin qisasçıya çevirmək olmaz. Onların məğlubiyyəti üzərindən qalibin üstünlüyünü göstərmək yox, əksinə, dostluq təklif etmək lazımdır ki, onlar bu məğlubiyyəti həzm edə bilsinlər. Eyni vəziyyət Rusiyaya da aiddir. Əgər gələcəkdə kiçik bir güzəşt edilərsə, bu, həm regionun, həm də beynəlxalq sabitliyin qorunması üçün vacib olacaq. Rusiya bu müharibədən çox şey itirib. Məsələn, Alyaska vaxtilə dəyər-dəyməzə satılmışdı, halbuki o, iki Ukrayna boydadır. Bu gün Ukraynada təxminən bir milyon rus əsgəri ölüb, Rusiya ordusunun yarısı artıq sıradan çıxıb. Yəni, bu müharibə Rusiyaya çox baha başa gəlib. Halbuki, Rusiyanın torpağa ehtiyacı yoxdur, dünya üzrə ən böyük əraziyə malik dövlətdir. Onun ehtiyacı ağıllı, məsuliyyətli insanlaradır. Amma Rusiya cəmiyyətində korrupsiya, dələduzluq və oğruluq dərin kök salıb. Buna görə də Rusiya artıq əvvəlki kimi güclü dövlət statusunu itirib.

Putin bu müharibə ilə əslində NATO-nun genişlənməsinə şərait yaratdı. Bu gün NATO sərhədləri üç dəfə böyüyüb və Rusiya ətrafında hərbi güc formalaşıb. Rusiya Suriyada, İraqda, Afrikada, Qafqazda və Orta Asiyada uduzub. Yəni faktiki olaraq uduzmaqlar silsiləsi yaşayan dövlətə çevrilib. Gələcək dünya nizamında Rusiya artıq sovet dövründəki kimi rol oynaya bilməyəcək. SSRİ vaxtı dünya iki güc - Rusiya və Amerika arasında bölünmüşdü. Amma indi Rusiya bu statusu tamamilə itirib. Əgər bu müharibə baş verməsəydi, bəlkə də çoxları hələ də Rusiyanı SSRİ kimi güclü hesab edərdi. Lakin indi artıq aydındır ki, Rusiya beynəlxalq siyasətdə əvvəlki kimi hesablaşılan tərəf olmayacaq.

***- Rusiyanın daxili vəziyyəti necə olacaq?***

- Mənə elə gəlir ki, Putindən sonra hakimiyyətə ona yaxın bir şəxs gətiriləcək. Bu da ölkədə müəyyən dərəcədə qisasçılıq və repressiya meyllərinin olmamasına səbəb olacaq.

***- Yaxın perspektivdə?***

- Dəqiq demək çətindir, amma təxminən bir-iki, bəlkə üç il ərzində Rusiyada yumşaq bir dəyişiklik ola bilər. Yəni rəhbərlik səviyyəsində dəyişiklik baş verəcək, lakin sistem dəyişməyəcək. Sadəcə, yeni rəhbər kim olacaq və Avropanın bu prosesə təsiri nə qədər güclü olacaq - bu, hələ aydın deyil. Amma bir şey dəqiqdir: Ukrayna müharibəsi Putinin hakimiyyətdən getməsini labüd edir. Bu müharibə ilə Putinin iqtidarda qalması artıq mümkün deyil.

***- Bəs Azərbaycan-Rusiya münasibətləri necə olacaq?***

- Əslində, Rusiyanın son addımlarına baxsaq, görərik ki, münasibətlərdə əvvəlki istilik artıq yoxdur. Belə hallar siyasətdə baş verir. Məncə, Rusiya Azərbaycanla bağlı İlham Əliyevin bəzi şərtlərini yerinə yetirib. Amma bir məsələ aydındır: Bakı və Moskva arasında əvvəlki münasibətləri bərpa etmək artıq mümkün deyil. Nə Putin buna gedər, nə də İlham Əliyev bundan sonra Rusiyaya tam güvənər. Rusiya göstərdi ki, onun üçün “dost” və “düşmən” anlayışı bir o qədər də sabit deyil.

***- Azərbaycan daxilində hansı dəyişikliklər gözləyirsiz?***

- Təəssüf ki, proseslər yaxşı istiqamətdə getmir. Azərbaycanda hakimiyyətə real müxalifət gücü yoxdur. Qarabağ müharibəsi bir müddət xalqı birləşdirdi, amma sonrakı mərhələdə korrupsioner məmurlar öz mövqelərini daha da gücləndirdilər.

Hazırda xarici siyasət ön plandadır, daxili siyasət isə ikinci dərəcəyə keçib. Sosial-iqtisadi vəziyyətin ağırlaşması gözlənilir.

**E. Rüstəmli**
**E. Bəymәmmədli**

# Hünər dastanını yazan Rəşad

## 44 günlük haqq savaşımızda qəhrəmanlıq göstərərək tarix yazan Cəlilabad elinin igid oğlu Rəşad Abdullayevin 27 yaşı tamam oldu

**Vətən torpaqlarının azadlığı uğrunda başlanan 44 günlük haqq savaşımızda qəhrəmanlıq göstərərək tarix yazan Cəlilabad elinin igid oğlu Rəşad Abdullayevin 27 yaşı tamam oldu.**



Qanı bahasına Vətənini alınmaz qalaya döndərən, şərəfli ölümü ilə milyonların qəlbində özünə yer edən Rəşad Abdullayev 1988-ci ildə Cəlilabad rayonunun Göytəpə şəhərində anadan olub. O, yağıya gücünü hələ Aprel döyüşləri zamanı göstərib. Belə ki, Rəşad Abdullayev "N" saylı hərbi hissənin komandir müavini kimi döyüşlərə qatılıb, ilk gündən bitənə qədər mühasirədə olsa belə, Ermənistan ordusunun xeyli sayda zabit-əsgər heyətini məhv etməklə oradan çıxa bilib. Və bu şücaətə görə 2016-cı ildə "Hərbi xidmətlərə görə" medalı ilə təltif edilib.

Ürəyi Vətən, torpaq eşqi ilə döyünən, doğma Azərbaycanı canından artıq sevən Rəşad Abdullayev 2014, 2015, 2017 və 2019-cu illərdə xarici ölkələrdə XTQ kurslarının, o cümlədən Türkiyədə keçirilən "TurAZ Qartalı" paraşut təlimlərinin iştirakçısı olaraq döyüşdə vacib olan bütün vasitələrə mükəmməl yiyələnib.

Kapitan Rəşad Abdullayev Vətən müharibəsi zamanı isə öz hərbi dəstəsi ilə Murov dağında yağıya qarşı döyüşə girib. Öndə olmaqla 34 erməni postunu ələ keçirib və Murov yüksəkliyinə Azərbaycan bayrağını sancıb. Düşmənlə üzbəüz savaşda sinəsindən yaralanmasına baxmayaraq, 20 saat ərzində zabit yoldaşlarını tək qoymayıb. Yaralı vəziyyətdə ayağa qalxaraq irəli getmələrini əmr edib. O, Ağdərə və Kəlbəcər istiqamətində aparılan əməliyyatların iştirakçısı olub. 2020-ci ilin sentyabrın 29-da Murov yüksəkliyində qəhrəmancasına döyüşərək şəhidlik zirvəsinə ucalıb. Ölümündən sonra ona "Vətən Müharibəsi Qəhrəmanı" adı verilməklə bərabər, həm də "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" və "Xocavəndin azad olunmasına görə" medallarına layiq görülüb.

Cəlilabad camaatı öz qəhrəman oğlunu ürəyində yaşadır, onu unutmurlar. Doğum günündə məzarı ziyarət olundu, ehtiram əlaməti olaraq ona təzə güllərdən çələng hördülər.

**Zəfər ORUCOĞLU**

# Vətən müharibəsinin zəfər şəhidi

## Elnur Əzizlinin həyat və döyüş yolu...

**Tariximizin yeni, şanlı səhifəsi olan İkinci Qarabağ müharibəsi zamanı canını Vətən, torpaq yolunda fəda edən minlərlə qəhrəman döyüşçülərdən biri də 25 sentyabr 2000-ci ildə Biləsuvar şəhərində anadan olan şəhid Elnur Şahin oğlu Əzizlidir. Yurduna hədsiz bağlı olan, el-obanın sevimli oğlu Elnur 44 günlük haqq savaşımızın ilk günündən 30 il əsir düşən Qarabağımızın azadlığı uğrunda döyüşə girib, Şuşaya qədər çətin və şərəfli bir yol keçib. Şuşanın bağrına zəfər bayrağı sancılandan sonra şəhidlik zirvəsinə ucalıb. Göstərdiyi igidliyi, hünəri onun adını Qarabağın xilaskarı kimi tarixin yaddaşına yazıb. Bu gün cismən aramızda olmasa da, qazanılan qələbəmizin qəhrəmanlıq simvoluna dönərək bütün Azərbaycan xalqı onunla fəxr edir. Həmçinin onun Vətən müharibəsində göstərdiyi şücaətlərə görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən ölümündən sonra layiq olduğu "Vətən uğrunda", "İgidliyə görə", Füzulinin, Xocavəndin, Şuşanın azadlığı uğrunda medalları doğmalarına bir təsəllidir.**



Elnur Əzizli orta məktəbi bitirib döyüş bölgəsində hərbi xidmətə başlayıb. Vətən və torpaq keşiyində ayıq-sayıq dayanan əsgərin cəsurluğu, qorxmazlığı, vətənpərvərliyi başqalarına nümunə olub. Hərbiçi olub yağıdan qisa almaq istəyi Elnuru Azərbaycan Ordusunun Xüsusi Təyinatlı Qüvvələrinin tərkibinə aparıb. Onun vacib təlimlərdə göstərdiyi əla döyüşçü keyfiyyətləri, fədakarlığı diqqətdən yayınmayıb. Odur ki, komandirləri ən çətin tapşırıqları ona etibar ediblər. Elnur bütün bunlardan qürur duyub, müharibəyə hazır durub, yoldaşlarına da bildirib ki, düşməndən intiqamımızı alacağımız günə az qalıb. Qeyrətli Vətən övladları tam buna hazırdırlar. Təkcə qalır Ali Baş Komandanın əmri. Müharibə başlansa, ön sırada mən gedəcəyəm. Özü də mütləq qalib gələrik.

Belə də olub. 2020-ci ilin 27 sentyabrında haqq savaşımız başlanan kimi Azərbaycan Ordusunun Xüsusi Təyinatlı Qüvvələrinin əsgəri olan Elnur Əzizli birincilər sırasında odlu-alovlu səngərdə öz yerini alıb. Ən qaynar nöqtələrdə düşmənə sarsıdıcı zərbələr vurub. Füzuli döyüşlərində daha çox fərqlənib. Buraya bayrağımızı sancanların sırasında olub. İgid əsgər daha sonra Xocavənd, Şuşanın azadlığı uğrunda gedən döyüşlərdə hünər göstərib. Yağıya qan uddurub, onlarla canlı qüvvəsini, neçə-neçə texnikasını məhv edib. Qısa müddətdə bir neçə ağır müharibə meydanından zəfərlə çıxan Elnur Əzizli noyabrın 9-da Şuşa istiqamətində döyüş tapşırığını yerinə yetirərkən qəhrəmancasına şəhid olaraq əbədiyyət adlı dünyasına qovuşub. Noyabrın 12-də böyük izdiham və ehtiramla doğma Biləsuvarda torpağa tapşırılıb.

Bəli, qərinələr keçəcək, amma Elnur unudulmaz, həmişə qəlblərdə yaşayacaq. Çünki o şüurlu surətdə öz canını qurban verdi ki, Vətən yaşasın, bağlandığı xalqın gələcəyi parlaq olsun.

**Zəfər ORUCOĞLU,**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü**

# Ürək yanğısı...



**"21.09.2020... Bu gün düz 5 il olar evdən çıxıb gedəni...Bu gedişinlə unudulmaz və qürurlu tarix yazdığını hər il daha çox anlayıram, amma sənsizliyin həsrəti, acısı, ürək yanğısı daha çox incidir...". Bu ifadələr Vətən müharibəsində Füzuli əməliyyatında, Cəbrayıl döyüşlərdə, Xocavəndın azadlığı uğrunda tarix yazan, Şuşada gedən ağır vuruşların birində əbədiyyət dünyasına qovuşan, 29 noyabr 2020-ci il tarixində Lənkəran rayonu, Yuxarı Nüvədi kəndində böyük izdihamla yolunda can qoyduğu torpağa tapşırılan, ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "İgidliyə görə", Xocavəndin və Füzulinin azadlığı uğrunda medalları ilə təltif olunan, 2 qız atası, evin yeganə övladı, iki ali təhsilli zəfər şəhidi, baş leytenant Vüsal Kazımovun atası professor Kamran Kazımova məxsusdur.**

Qəlbi qubarlı, uca dağ kimi vüqarlı, Vətənini, xalqını canında əziz bilən professor sevdalandığı millətinin sevincinə tapınıb, hətta dərdini belə unutmağı bacarır. Əhsən, belə böyük ürək sahibinə!

Müdriklər beşiyi, igidlər yurdu bütöv Azərbaycanın dəyərli alim oğlu yazıb-yaratmaqdan da qalmır. Professorun dediyi kimi, bir neçə ilin gərgin əməyinin növbəti bəhrəsi olan, istedadlı şair, Prezident təqaüdçüsü, filologiya üzrə fəlsəfə doktoru, dosent Elşad Səfərlinin yaradıcılığına həsr olunmuş " Elşad Səfərlinin yaradıcılığın tədqiq və təhlil koteksti" monoqrafiyası "Qanun nəşriyyatı"nda çapdan çıxıb. Professor bildirir ki, kitab İkinci Qarabağ müharibəsində qələbəmizin 5-ci ildönümünə və başda oğlum baş leytenant Vüsal Kazımov olmaqla bütün şəhidlərimizə ithaf olunub.

**Zəfər ORUCOĞLU**

Hürriyyət
Şəxsiyyət
SİZİN ÜÇÜN QƏZET
№37 (3376) 14 Oktyabr / 2025-ci il
www.hurriyyet.az; / hurriyyet@mail.ru


# Dünyanın tanıdığı alim

**2026-cı ilin yanvar ayının 22-də AR EN Neft-Kimya Prosesləri İnstitutunun laboratoriya müdiri, kimya elmləri doktoru, professor Eldar Hüseynqulu oğlu Məmmədbəylinin anadan olmasının 85, elmi-pedaqoji fəaliyyətinin 55 illiyi tamam olur.**



## Eldar Məmmədbəyli Azərbaycan elminin inkişafı naminə yorulmadan çalışan görkəmli elm xadimidir

Azərbaycan Tibb İnstitutunun məzunu kimi qısa sürən əczaçılıq fəaliyyətindən sonra, 1967-ci ildən indiyədək Azərbaycan Milli Elmlər Akademiyasında kimyaçı kimi davam etdirir. O, üzvi kimya, neft kimyası, asimmetrik sintez, sulfatreduksiyaedici bakteriyalar əleyhinə antimikrob maddələrin sintezi və xassələrinin tədqiqi sahəsində fəaliyyət göstərir və tədqiqatlarını indi də uğurla davam etdirir.

Onun rəhbərliyi ilə alkil (aril) sulfanilalkanların aminometoksi törəmələrinin yeni nəsil nümayəndələrinin yüksək regiostereoselektivliklə və preparativ çıxımla alınmasının elmi əsasları işlənib hazırlanmışdır. Tərkibində norbornen fraqmenti saxlayan yeni imidozalinlər, Mannix əsasları, onların bazasında komplekslər alınmışdır. Alınan birləşmələrin bir çoxunun antimikrob aşqar kimi, müxtəlif bakteriyalara və göbələklərə qarşı antimikrob maddə kimi tətbiqi üçün tövsiyələr verilmişdir. Birləşmələr həmçinin korroziya inhibitoru olan antimikrob maddələr kimi sınaqdan keçirilmiş və yüksək nəticələr əldə edilmişdir.

Bitirdiyi Azərbaycan Tibb Universitetinin "Tibbi mikrobiologiya və immunologiya" kafedrasının və "Ümumi və toksikoloji kimya" kafedrasının əməkdaşları ilə sintez olunmuş yeni bioloji aktiv maddələrin antimikrob xassələrinin öyrənilməsi və bitkilərdən alınmış təbii birləşmələrin quruluşlarının müasir fiziki üsullarla təyin edilməsi sahəsində tədqiqat işlərinin aparılmasında da iştirak etmişdir.

Eldar müəllim elmi kadrların hazırlanması işində də fəal iştirak edir. Onun rəhbərliyi ilə 9 fəlsəfə doktoru, 3 elmlər doktorluğu dissertasiyaları müdafiə olunmuşdur. Hazırda da onun rəhbərliyi altında dissertasiya işləri yerinə yetirilir. O, Elm və təhsil nazirliyinin Neft və Kimya prosesləri institunun Elmi Şurasının və Dissertasiya Şurasının üzvü, "Azərbaycan Əczaçılıq və Farmakoterapiya", "Neft kimyası və neft emalı prosesləri", "Kimya problemləri" jurnallarının, həmçinin Rusiya Federasiyasının bir neçə elmi jurnallarının Redaksiya Şurasının üzvüdür.

Elmi işlərlə yanaşı, o, təhsil sahəsində də fəaliyyət göstərmişdir. Uzun illər Azərbaycan Beynəlxalq Universitetinin Tibb fakültəsində "Biokimya", "Farmakologiya" fənlərini tədris etmişdir. 2009-cu ildə Azərbaycan Tibb Universitetinin buraxılış işlərinin müdafiəsi üzrə komissiyanın və 2016-cı ildə Lənkəran Dövlət Universitetinin dövlət imtahan komissiyasının sədri olmuşdur. Müxtəlif illərdə ayrı-ayrı universitetlərdə tələbələrin buraxılış işlərində diplom işinin rəhbəri olmuş, son illər Moskva Dövlət Universitetinin Bakı filialının tələbələrini bakalavr pilləsinin diplom işlərinə rəhbərlik etmişdir.

Müəllifləri görkəmli rus alimləri B.A. Smit və A.D. Dilman olan "Müasir üzvi sintezin əsasları" adlı 2015-ci ildə dərc olunmuş ali məktəblər üçün dərslikdə (Moskva BİNOM, Laboratorə znaniy, 2015) axiral substratların (dien və dienofillər) əsasında xiral adduktların alınması üçün xiral katalizatorların iştirakında aparılan [4+2]tsiklobirləşmə reaksiyasından istifadə olunması barədə məlumat verilir. Bu tədqiqat sahəsinin azərbaycanlı alimlər tərəfindən açıldığı qeyd olunur (səh. 623, 641). Adının belə mötəbər dərsliyə daxil edilməsi Eldar müəllimin beynəlxalq səviyyədə tanınan nüfuzlu bir alim olmasına dəlalət edir.

Eldar müəllim elmi-pedaqoji fəaliyyətindən əlavə ictimai işlərlə də məşğul olmuşdur. 1999-cu ildən başlayaraq uzun müddət Səhiyyə Nazirliyinin Əczaçılıq müəssisələrinə nəzarət edən daimi komissiyanın üzvü olmuşdur. O, bəzi qəzet və jurnallarda dərc olunmuş bir çox elmi-publisistik məqalələrin müəllifidir.

Bu tədqiqatların əsas hissəsi bizim kafedranın əməkdaşları ilə birlikdə aparılır. ATU-nun əməkdaşları ilə aparılan birgə elmi işlərin nəticəsi 40-dan çox elmi əsərlərdə öz əksini tapmışdır. Bunların çox hissəsi nüfuzlu jurnallarda dərc olunmuşdur. Professor ATU-da keçirilən müxtəlif tədbirlərdə, özəlliklə elmi konfranslarda aktiv iştirak edir.

E.H.Məmmədbəylinin elmi-tədqiqat, pedaqoji və ictimai fəaliyyəti həmişə yüksək qiymətləndirilmişdir. 2010-cu ildə AMEA-nın Fəxri Fərmanı ilə, 2015-ci ildə AMEA-nın 70 illik yubileyi ilə əlaqədar olaraq onun uzunmüddətli məhsuldar elmi və elmi ictimai fəaliyyətimi nəzərə alaraq Kimya Elmləri Bölməsinin Fərmanı ilə təltif edilmişdir.

Prezident İlham Əliyevin 1452 saylı 2019-cu il Sərəncamı ilə "Tərəqqi" medalı dövlət tərəfindən onun fəaliyyətinə verilən ən yüksək qiymətdir.

Ömrünün müdriklik çağlarını yaşayan Eldar müəllim bu gün də çalışır, elmi tədqiqat işlərini davam etdirir, öz biliklərini gələcək alimlərə yorulmadan öyrədir.

Hesab edirəm ki, qədirbilən dövlətimiz və cənab Prezidentimiz bu ilin dekabr ayındada keçiriləcək AMEA-nın 80 illik yubileyi zamanı ömrünün 58 ilini bu təşkilatda çalışan Eldar müəllimə layiq olduğu qiyməti verəcəkdir. Eldar müəllimi yubileyi münasibətilə səmimi-qəlbdən təbrik edir, ona möhkəm can sağlığı, Azərbaycan Elminin inkişafı naminə fədakar və yorulmaz fəaliyyətində uğurlar arzu edirəm.

***Akif QURBANOV,***
***Azərbaycan Respublikası Səhiyyə Nazirliyi V.Axundov adına Elmi-Tədqiqat Tibbi Profilaktika İnstitutunun elmi işlər üzrə direktor müavini, Azərbaycan Tibb Universitetinin Tibbi Mikrobiologiya və İmmunologiya Kafedrasının professoru, tibb elmləri doktoru, əməkdar müəllim***

# Beynəlxalq təşkilat quruldu, azərbaycanlı rəhbər seçildi

**Beynəlxalq İnsan Hüquqlarının Müdafiəsi və Əməkdaşlıq Alyansı təsis olunmuş, qurumun İsveçrənin Cenevrə şəhərində iclası keçirilərək, Rəşad Quliyev təşkilata sədr seçilmişdir.**

Hurriyyet.az xəbər verir ki, Beynəlxalq İnsan Hüquqlarının Müdafiəsi və Əməkdaşlıq Alyansı İsveçrənin Cenevrə şəhərində təsis edilib, təsisçilərinin əsas hissəsi, Avropa, Afrika və MDB ölkələrinin vətəndaşlarıdır.

Alyansın əsas fəaliyyəti İnsan hüquqlarının qorunması, insan ləyaqətinin təmin olunması, hüquq pozuntularının sənədləşdirilməsi və beynəlxalq əməkdaşlığın genişləndirilməsi istiqamətində olacaqdır. Eyni zamanda təşkilat insan haqlarını qorumaq məqsədi ilə aşağıdakı fəaliyyətləri həyata keçirəcəkdir :

- İnsan hüquqlarının pozulması halları üzrə araşdırmalar aparmaq;
- Beynəlxalq təşkilatlara hesabatlar təqdim etmək;
- Hüquq müdafiəçilərinə hüquqi və psixoloji dəstək göstərmək;
- Maarifləndirmə və təhsil layihələri həyata keçirmək;
- Regional və beynəlxalq tərəfdaşlıq şəbəkələri ilə əməkdaşlıq qurmaq;
- Beynəlxalq konfranslar, forumlar və ictimai kampaniyalar təşkil etmək.

Təşkilatın iclası keçirilərək, Alyansa ictimai fəal Rəşad Quliyev sədr seçilmişdir.

Qeyd edək ki, Rəşad Quliyev bundan öncə Dünya Azərbaycanlıları Konqresində Gənclər Təşkilatının sədri, Beynəlxalq Avropa Hərəkatının Azərbaycan nümayəndəliyində baş katib, Belçika Azərbaycanlıları Cəmiyyətinin sədri, Alman Azərbaycan Mədəniyyət Evinin rəhbəri, Dünya Azərbaycanlıları Assambleyasının sədri olmuşdur.

Təşkilatın mərkəzi ofisi İsveçrədə fəaliyyət göstərəcəkdir.

**KƏNAN**





# Balaca fidanların sevinc payı





Bildiyimiz kimi, oktyabrın əvvəlində ölkəmizdə bütün ümumtəhsil məktəblərində balaca fidanlar ilk dəfə məktəbəhazırlıq qruplarına qatıldılar və məktəb həyatı ilə tanış oldular. Onların arasında Lənkəran rayonu, Mais Mirzəcanov adına Yuxarı Nüvədi kənd tam orta ümumtəhsil məktəbində qəhrəman, Vətən sevdalısı Vüsal Kazımovun kiçik qızı Aynur Kazımova da vardır. Onun bu ilk addımı həm də atasının şanlı yolunun davamı olaraq, hər birimiz üçün böyük qürur və mənəvi dəstək mənbəyidir.

Şəhid qızı Aynurun qədəm qoyduğu təhsil ocağında bu münasibətlə keçirilən tədbir Vətən uğrunda canlarını fəda etmiş qəhrəmanların əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi və Azərbaycan Respublikasının Dövlət Himninin səslənməsi ilə başlandı. Bu an balacaların vətənpərvərlik və milli dəyərlərə daha ürəkdən bağlanması, eyni zamanda onların təhsil həyatına mənəvi hazırlıq üçün böyük əhəmiyyət kəsb etdi.

Şəhid Vüsal Kazımovun atası, Astara Pedaqoji Kollecinin direktoru, filologiya elmləri doktoru, professor Kamran Kazımovun, şəhid ailə üzvlərinin, Astara rayonu üzrə Təhsil Sektorunun müdiri Xədicə Əliyevanın, Astara Pedaqoji Kollecinin işçi heyəti və məktəbin direktoru Ramiz Ramazanovun qatıldığı mərasimdə çıxışlar zamanı bildirildi ki, dövlət və cəmiyyətin əsas prioritet istiqaməti şəhid övladlarının rifahının yüksək səviyyədə təminidir. Şəhid yadigarı olan bizim balaca Aynur təhsil yolunda hər zaman dəstək alacaq, onun bacarıqlarının inkişafı və təhsil imkanlarının artırılması üçün mövcud resurslardan tam istifadə olunacaq. Həmçinin şəhid ailələrinə göstərilən diqqət və qayğının həmişə davamlı olduğu diqqətə çatdırıldı.

Tədbir iştirakçıları daha sonra məktəbin fəaliyyəti ilə yaxından tanış oldular, sinif otaqlarına baxdılar, müəllim və şagirdlərlə səmimi dialoqlar apardılar. Eləcə tədrisin təşkili, dərs metodlarının tətbiqi və fərdi bacarıqların inkişafı mövzusunda fikir mübadiləsi də maraqlı alındı.

Yekunda balaca Aynura və bütün fidanlara sağlam, uğurlu və nurlu təhsil həyatı, Vətənə layiqli, mərd vətəndaşlar kimi böyüməsi arzulandı. Həm də dövlətimizin bütün dünyada başımızı ucaldan şəhid övladlarına göstərdiyi diqqət və qayğının, eyni zamanda təhsil müəssisələrinin sosial və mənəvi məsuliyyətlərinin bariz nümunəsi olduğu deyildi.

**Zəfər ORUCOĞLU,**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü**

# Zəngi dərəsi, Yaz yurdu düzü, Tək Pir və Qalağ yüksəkliyi qoynunda Şəhid məqamları

**Qobustan təbii-coğrafi bölgəsində Mərəzə yaylası ilə Ləngəbiz tirəsi arasında, Pir Seyid/Pirsaat çayının sol qolu, quruyan Zəngi çayı hövzəsində, alçaq təpəli-hündürlüklü Muradağa yüksəkliyi ətəklərində, quru çöl şəraitində yerləşən Cəmcəmli kəndinin I-II Vətən müharibələri (1988-1994-cü və 2020-ci illər dövrü) tarixində Şəhid olmuş, kənd qəbirstanlığında Müqəddəs Məqama qovuşan Ərənləri sırasında Ramil Biləsuvar oğlu Hidayətovun (28.08.1974-31.01.1994) adı xüsusi hörmətlə yad edilir və unudulmaz xatirəsi kənd sakinləri tərəfindən əziz-xələfliklə qorunub-saxlanılır...**



**Xanım ana müqəddəs məqamda.**

Vətən sevgisi ilə ruhən yoğrulmuş ocaqda doğulmuş Ramil hələ uşaqlıq illərindən yaddan çıxmayan bir çox xatirələri ilə hələ də doğmaları, əzizləri, yaxınları arasında və cəbhə silahdaşlarının yaddaşlarında xatırlarnır. Hələ uşaqlıq illərindən ciddiliyi, diqqətli və təmkinli olmağı ilə ailədə və həmyaşıdları arasında seçilməklə O, unudulmayan həyatı ilə şərəfli Ömür tarixinə cavan canı-müqəddəs qanıyla pozulmaz bir imza atmışdır, Dövlətimizin bütövlüyü, Xalqımızın varlığı naminə...

Orta təhsilini Şəhid R.A.Babaşov adına Cəmcəmli kənd tam orta məktəbində başa vurduqdan sonra (1992-ci ildə) Vətən /Vətəndaşlıq borcunu Azərbaycan Ordusu sıralarında keçirsə də, torpaqlarımızın işğalı ilə mənən barışmayan Ramil 1993-cü ilin sonlarında yenidən Xüsussi Təyinatlı Hissədə (əvvəlcə Qusar rayonunda, sonra Bakı şəhəri yaxınlığında) hərbi-təlimlərə yiyələnmiş, döyüş hazırlığı keçdikdən sonra Tərtər rayonunda hərbi hissələrdən birinə (Səhlabad kəndi ərazisində yerləşən) göndərilmişdir. Hərbi xidmət və cəbhə döyüşlərində silahdaşlarından Daşqın Qəşəm oğlu Qəniyev (1975, Qobustan şəhəri), Mehman Aslan oğlu Məmmədov (1974, Sabirabad rayonu, Ulucalı kəndi) hələ də onunla bağlı xatirələrini unutmamış və Ağdərə-Tərtər cəbhə xətti boyunca birlikdə keçirdikləri kəşfiyyat əməliyyatlarında Ramilin həmişə öndə getdiyi, tapşırıqları səhvsiz icra etdiyi, döyüş meydanının iqlim-relyef çətinliyinə sinə gərdiyini, aclığa-susuzluğa məhəl qoymadığını...dilə gətirir və həm də dostluq etdikləri Ramilin Şəhir Ruhunu ehtiramla yad edirlər.

1993-cü ilin oktyabr ayında Suqovuşan su anbarı-Tərətər çayı hövzəsindən keçən cəbhə xəttində gedən ağır döyüşlər zamanı Rami Biləsuvar oğlunun da iştirakı ilə zabit-əsgər heyəti çətin relyef örtüyü, kəskin iqlim şəraiti onların iradəsinin qırmamış, əksinə, güclü hərbi təchizata malik düşmən hücumunun qarşısını ala bilmişlər.

Yuxarıda adları çəkilən Qazilər Kəlbəcər-Ağdərə yolu istiqamətində 1994-cü ilin 30-31 yanvar günlərində gedən qanlı döyüşlər səhnəsini xatırlayır, Ordumuzun zabit-əsgər heyətinin bütün çətinliklərə baxmayaraq mərdliklə döyüşdüklərini, amma itkisiz olmadığını təəssüf hissilə qeyd etmişlər.

Şəhidlər sırasında 20 yaşlı Ramil Biləsuvar oğlu də olmuşdur...

Məktəb yoldaşı və Ağcabədi-Haramı düzü cənhə bölgəsində 1992-ci ildə bir yerdə hərbi xidmətdə olmuş həmkəndlisi Yalçın Qələm oğlu Əyyubov (1975) düşmənlə üzə-üzə olduğları vaxtda da Ramilin təhsildə nümunəvi olduğunu, xidmətdə vətənpərvər əsgər kimi yaddaşlarda qaldığını vurğulayır.

Anası Xanım Abdulla qızı Hidayətova (1949) Şəhid Anası olduğunu həm də ona görə qürurla daşıdığını dilə gətirir ki, Ramil hərbi xidmətdən qayıtdıqdan sonra Vətənimizin işğalda, Ana-Bacılarımız təhlükədə ikən evdə rahatlıq tapmadı, çağırış gözləmədən könüllü olaraq cəbhəyə yollandı.

1993-cü ilin iyun ayı günlərinin birində gözləmədiyimiz halda əlində çağırış vərəqi gəldi ki, nəhayət, sabah mən cənhəyə gedəcəm...Boş vaxtlarında evdə həmişə idmanla məşğul olurdu (kəndin altında "Tək çappa" deyilən yerdə) ki, fiziki hazırlığı yüksək olsun. Təhsilini Türkiyə Cumhuriyyətində almağı arzu edirdi, məktəb illərində biliklərə yiyələnməyə üstünlük verirdi, riyaziyyat və tarix fənnlərini mükəmməl bilirdi...

Onun bu hərəkəti Qobustan rayon Hərbi komissarlığı tərəfindən başqalarına nümunə kimi göstərilirdi...

Kiçik qardaşı Amil Biləsuvar oğlu da (1980) xatırlayır ki, 1992-ci ilin qış aylarında hərbi hissədən buraxılan Ramil (corab əvəzinə ayağına alt paltarının qolunu geymişdi) səbirsizliklə gözləyirdi ki, onu hərbi xidmətə çağıracaqlar, evdə rahat ola bilmirdi, gözləri yolda qalmışdı. Axırda özü könüllü getdi ki, bəlkə mən yaddan çıxmışam....və hardasa 7-8 aydan sonra Şəhid oldu...

Xanım ana və Ailə üzvləri (həyat yoldaşı Biləsuvar şahnəzər oğlu (1942) 1986-cı ildə vəfat edib, oğulları Azər (1967), Dilqəm (1970), Amil (1980), qızları Ziyafət (1972), İlhamə (1978), Billur (1982), doğmaları, əzizləri...) Şəhid Ramilin xatirəsini unutmadığı kimi, həm də bu ocaqda Ramilin doğulacağına, Əmisinin adına layiq Vətən övladı olacağına əmindirlər.

**Amin, inşallah!**

**Qismət YUNUSOĞLU**
**Bakı Dövlət Universitetinin müəllimi**

***Qeyd:** Yazının hazırlanmasında həm də Qobustan rayonu, Cəmcəmli kənd sakinləri Məhəmməd Sarvan oğlu Bayramovun (1952) və Şəmşir Babasən oğlu Əhlimanovun (1974) məlumatlarından istifadə edilmişdir.*

# Şəkidə qurulan "Dar ağacı"

## Bəxtiyar Vahabzadə -100



Çağdaş Azərbaycan ədəbiyyatında XX əsr poetik fikrinin görkəmli nümayəndəsi olan Xalq şairi Bəxtiyar Vahabzadə yaradıcılığı və xüsusilə onun dramaturgiyası öz aktuallığını hər zaman olduğu kimi bu gün də qoruyub saxlamaqdadır. Vahabzadə yaradıcılığında və dramaturji yanaşma mövqeyində vətən və onun taleyi mövzusu bir mərhələ və ya bir dövr olaraq əks etdirilmirdi. Əksinə yaradıcılığı boyu xüsusi olaraq bir xətt boyunca davam edən daimi aparıcı mövzuların orjinal aktuallığına əsaslanaraq bütöv və böyük Azərbaycanın milli şairi kimi dərk olunmaqla bu missiyanın daşıyıcısı olması ilə qürur duyurdu. Bu missiya onun dramaturgiyasında daha çox özünü təsdiqləməklə müasir peşəkar Azərbaycan teatrının repertuar zənginliyinə, dolğunluğuna və maraqla izlənilməsinə xidmət edirdi. Bu dramaturgiya həm də müasir Azərbaycan teatrında bitgin, rəngarəng və maraqla baxıla bilən aktyor heyətinin yetişməsi və inkişaf etməsinə mərhələli şəkildə formalaşmasında xüsusi xidmətləri mövcud idi. Elə bu baxımdan da Bəxtiyar Vahabzadə yalnız poeziyası ilə deyil, dramaturgiyası ilə də müasir ədəbiyyatın imkanlarına öz təsirini göstərə bilirdi.

Bu günlərdə şairin 100 illik yubileyi ərəfəsində Şəki Dövlət Dram Teatrının səhnəsində Əməkdar İncəsənət xadimi Mirbala Səlimlinin rejissor traktofkasında ədibin qələmə aldığı "Dar ağacı" tarixi faciə janrında olan pyesinin tamaşasına maraqla baxdım.

İlk öncə qeyd edim ki, dramaturqun tarixi mövzuda qələmə aldığı və bu istiqamətdə ilk qələm təcrübəsi də məhz "Dar ağacı"dır. Özünün də tarixi faktları maraqla izləməklə hadisələri mövzuya gətirib çıxaran bədii niyyətin orijinallığı məhz müəllifin ideya və düşüncələrini bu əsərdə daha dolğun şəkildə göstərə bilmişdir. Belə ki, bu pyesdə Babək xatırlanır, talelərə və əməllərə onun ruhu və qəh-qəhələri ilə yekun vurulur, lakin süjetin əyani gedişi prosesində onun özü yox, Babəkin teyfi bütöv bir məkanı dolanmaqla iştirak edir.

Qeyd etməliyəm ki, şairin tarixi faciə janrında qələmə aldığı "Dar ağacı" pyesi məzmunca maraqlı və ibrətamizdir. Xalq qəhrəmanı yadelli işğalçılara qarşı 20 illik mübarizə aparan Babəkin edam edilməsindən sonra Azərbaycanda cərəyan edən azadlıq mübarizəsi əsərin ana xəttini təşkil edir. Məhz rejissor, Əməkdar İncəsənət xadimi Mirbala Səlimli də səhnə quruluşunda qələmə alınan tarixi mövzulu dramaturgiyanın ana xəttinə sadiq qalaraq orjinal səhnə traktofkasında təqdim edilməsinə müvəffəq ola bilib. Onun rejissor traktofkasında Babəklə bağlı tarixi yaddaş və milli şüurun oyadılması aspektindən yanaşması ilə faciə janrına xas olan ştrixlərin quruluş, konflikt, qəhrəmanlıq elementlərinin qabarıq şəkildə göstərilməsinə nail ola bilinir. Rejissor səhnə quruluşunda həm də tarixi mübarizənin, milli azadlıq uğrunda fədakarlığın obrazlarını uğurla fərdi qaydada ayrı-ayrılıqda təqdim etməklə, insanların vətən, azadlıq uğrunda canlarını fəda etməsinin mənəvi və əxlaqi tərəflərini ön planda böyük uğurla göstərə bilir. Məhz Mirbala Səlimli öz səhnə quruluşunda "ədalətsizliyə, işğalçılığa, zülmə qarşı müqavimət vacibliyinin haqq və azadlıq ideyasından doğaraq sonda qalib gəlməlidir" fikrinin təzahürü olaraq üstəlik əqidə qarşıdurması, fərqli mövqe, vətənçilik və işğalın yanında dayanmamaq kimi dramatik xətti uğurla təqdim edə bilmişdir.

Müəllif ideyasından irəli gələrək süjet xətti xronoloji deyil, tarixi hadisələrin müəyyən dövrünü əhatə edir. Qeyd etməliyəm ki, Babəkin mübarizəsi, onun ölümündən sonra xalqda oyana biləcək üsyan potensialı üzərində hadisələrin lokanik və ardıcıllıqla bir xətt boyunca qurulması tamaşanın maraqla izlənilməsinə ciddi təkan vermiş olur. Xüsusi olaraq qeyd etmək lazımdır ki, tamaşa boyu səhnədə bir neçə simvolik olaraq dar ağaclarının qurulması da insan taleyinin ancaq bir ipdən asılı olamsı ilə yanaşı qiyam, edam bununla da yalnız faktiki olaraq bir hadisə kimi deyil, ideya simvolu kimi də uğurla təqdimatına yönəlmişdir. Məhz bu zaman isə hadisələrin inkişafı səhnə dili və dialoqların inkişafı ilə ideyalar, daxili konfliktlər açılmaqla mübarizə yalnız silahlı və fiziki deyil, həm də mənəvi, ideoloji müstəvidə olduğunun göstəricisi kimi təqdim edilir. Həmçinin estetik baxımdan tamaşa boyu "Dar ağacı" səhnədə rejissor traktofkasından irəli gələrək zəngin, səlist dilə malik olması ilə yanaşı memarlıq, xalqının tarixindəki döyüşlər, vətən hissləri poetik təsvir elementi kimi geniş bir formada daha dolğun şəkildə istifadə olunmaqla təqdim edilir.

Tamaşada Respublikanın Əməkdar artisti Xanlar Həşimzadə Xalq nümayəndəsi Ağsaqqal obrazında çıxış edir. Aktyorun ifasında Ağsaqqal obrazı əsərdə sadəcə bir fərd deyil, xüsusi olaraq xalqın ümumi iradəsinin, düşüncəsinin, narahatlığının və ədalət hissinin təcəssümü olaraq təqdim edilir. O, sanki pyesdə danışan və heç zaman susa bilməyən bir vicdan funksiyasını da öz üzərində daşıyır. O, haqsızlığa susmur, ədalətə çağırır və zülmə qarşı mövqeyini bildirir. Qeyd etmək lazımdır ki, məhz "Dar ağacı" pyesində də təqdim edilən Ağsaqqal obrazı Azərbaycan ədəbiyyatında klassik nümunə olaraq müdriklik, xalq bilgisi, həyat təcrübəsi və ədalət simvolu olaraq təqdim edilir. Məhz tamaşa boyunca aktyorun ifasında təqdim edilən Ağsaqqal obrazı da öz xalqının keçmişini, çəkdiyi iztirabları yaxşı xatırlayan və onlardan nəticə çıxaran, aydın baxışlı bir şəxs kimi təqdim olunur. Əməkdar artist Xanlar Həşimzadə səhnədə ifa etdiyi obrazı ilə bir daha passiv müşahidəçi deyil, aktiv mövqe nümayiş etdirən, xalqı ayılmağa, haqq-ədalət uğrunda mübarizəyə çağıran el Ağsaqqalı olaraq obrazın mahiyyət etibari ilə tam olaraq ifasına müvəffəq ola bilmişdir. Aktyorun ifasında obraz daha canlı və mübarizdir. Tamaşa boyu Ağsaqqal obrazı həm də nəsillər arasında bir körpü rolunu oynayır. Gənclərin mübarizəsinə hörmətlə yanaşır, onları dəstəkləyir, eyni zamanda ehtiyatlı və düşünülmüş addımların vacibliyini xüsusi olaraq hər zaman vurğulayır. Aktyorun ifasında təqdim edilən obraz, sadəcə bir qoca deyil. O, xalq yaddaşı, tarix və mədəniyyətin daşıyıcısıdır. Məhz Xanlar Həşimzadənin ifasında Ağsaqqal həmçinin xalqın müdrikliyini, ədalətə olan inamını, keçmişin təcrübələrini və xüsusilə gələcəyə verilən ümidləri təcəssüm etdirir. Onun ifasında Ağsaqqal obrazı sadə bir xalq nümayəndəsi kimi təqdim olunsa da, əslində ideoloji cəhətdən çox güclü, xalqı düşünməyə və mübarizəyə səsləyən, zülmə qarşı duruş sərgiləyən bir obraz olaraq uğurla təqdim edilir.

Səhnədə maraqla baxılan su-



rətlərdən biri də Respublikanın Əməkdar artisti Əbülfət Salahovun ifasında Xilafətin nümayəndəsi olan İbn Zeyd obrazıdır. İbn Zeyd tamaşa boyu Xilafətin, yəni hökmranlıq edən və zülm edən qüvvənin təmsilçisi olaraq çıxış edir. O, mərkəzi hakimiyyətin sərt, ədalətsiz və repressiv təbiətini əks etdirir. Aktyor tamaşa boyu İbn Zeyd obrazı vasitəsilə diktatura rejimini və onun məhdudlaşdırıcı eləcə də insan haqlarını pozan xarakterini uğurla təqdim edə bilir. Həmçinin aktyor səhnədə İbn Zeyd obrazını qatı, sərt və avtoritar bir şəxs kimi də təqdiminə nail olmuşdur. Təqdim olunan obraz aktyorun ifasında bir daha hakimiyyətini qorumaq üçün əmr və intiqam yolu ilə insanları basqı altında saxlamaqla, davranışlarında isə azadlıq uğrunda mübarizəyə mane olmaq məqsədi aydın şəkildə görünür. Həmçinin qeyd etmək lazımdır ki, İbn Zeyd obrazında daxili insani tərəflər və konfliktlər demək olar ki, yoxdur. O, tamamilə hakimiyyətin və qanunun sərt tərəfində dayanmaqdadır. Bu obraz vasitəsilə diktatorun insanlıqdan uzaq, yalnız hakimiyyətə bağlı tərəfi xüsusi olaraq vurğulanır. Qeyd etmək lazımdır ki, "Dar ağacı" tamaşasında İbn Zeyd və Akşin obrazları arasında ideoloji, əxlaqi ziddiyyət əsas dramaturji xətti kimi xüsusi olaraq göstərilir. İbn Zeyd azadlıq eləcə də ədalət uğrunda mübarizəyə qarşı olan zülm və ədalətsizliyin təmsilçisidir. Aktyorun ifasında İbn Zeyd obrazı həmçinin ümumilikdə repressiv hakimiyyətin, özgürlük və insan hüquqlarını boğan qüvvənin simvolu olaraq da təqdim edilir. Onun xarakteri vasitəsilə pyesdə ədalətsizlik və zülm qınanır, azadlıq uğrunda mübarizənin vacibliyi isə xüsusi olaraq önə çıxarılır.

Tamaşa boyu maraqla izlənilən surətlərdən biri də Babəkin teyfi obrazıdır. Bu obrazı Respublikanın Əməkdar artisti Rəhim Qocayev ifa edir. Aktyorun ifasında Babəkin teyfi obrazı güclü iradəyə malik, qorxmaz və qəhrəman olmaqla yanaşı zorakılığa, haqsızlığa qarşı mübarizə apararaq ən çətin şəraitdə belə ideallarından dönməzdir. Məhz aktyorun ifasında təqdim olunan Babəkin teyfi müqavimətin və milli ruhun təcəssümü olaraq maraqla izlənilir. Aktyor səhnədə öz ifa tərzi ilə bir daha Babəkin teyfi obrazında birliyə və həmrəyliyə böyük önəm verdiyini maraqlı ştrixləri ilə təqdim etməyi bacarır. Obraz vasitəsilə maraqlı ştrixlərdə milli azadlıq, qurtuluş və ədalət uğrunda mübarizənin ideyası ön plana çıxarılmaqla təqdim edilir. Məhz tamaşa boyu Babəkin teyfi ilə bağlı səhnələrdə pyesin əsas ideyası olan azadlıq və ədalət uğrunda mübarizənin vacibliyi aydın şəkildə göstərilir. Onlar xalqın ümidi və gücü kimi təsvir edilir. Əməkdar artist Rəhim Qocayev obrazın mahiyyət etibari ilə rejissor traktofkasından irəli gələrək uğurlu səhnə həllinə nail ola bilmişdir.

*(Ardı var)*

**Anar Ərtoğrul Burcəliyev**
**Teatrşünas-tənqidçi**

"Bircə dəfə də olsun dönüb ətrafa baxıb, ətrafın bu məsələlərlə bağlı nə dü-şündüyü haqqında maraqlanmısızmı? Təbii ki, mən ətraf deyərkən Elçin Hüseyn-bəyliləri, Rəşad Məcidləri, Azər Turanları... və bu kimi mövqeyi "güllələnmişləri" yox, İllərin dəyirmanından "diri" çıxanları nəzərdə tuturam".

**Emil Rüstəmoğlu,**
**AYB üzvü, "Hüriyyət"**
**23.09.2025**





**Allahverdi EMİNOV**
***Azərbaycan Yazıçılar Birliyinin və SSRİ jurnalistlər birliyin üzvü (1979-cu iil) pedaqogika üzrə fəlsəfə doktoru, dosent, respublikanın "Qabaqcıl maarif xadimi", "Qızıl qələm" mukafatı laureatı, yazıçı və ədəbiyyatşünas.***

# Xalq yazıçısı Anar Rzayevə müraciət

Azərbaycan Yazıçılar Birliyinin "əvəzolunmaz" sədri, 88 yaşlı Anar Rəsul Rza oğlu Rzayevə ünvanlanan məktub məni bir xeyli əvvələ qaytardı. Qayıtmaya da bilərdim, lakin yaşından irəli gələn səhhətinin yerində olmadığını düşünüb fikrimdən yayınmaq istədimsə... Mən Anar şəxsiyyətinə hörmətimi gizlətmirəm və daima onu, atası Xalq şairi Rəsul Rzanı vaxtilə tədris etmişəm, hər ikisini "sol-çulardan" "qorumuşam".

Ədəbi monoqrafiyalarımda, xüsusilə yazıçı Anarın yara-dıcılığını təqdir etmiş, məqalələrimə imza atmışam. Anar haqqında yazılan tənqidi məqalələrə də biganə qalmamışam. Təəssüf etmişəm ki, ətrafına topladığı bəzi (la-yiqli funksionerlər (Səlim Bəbullaoğlu, İntiqam Qasımzadə, Südabə Ağabalayeva, Elçin Hüseynbəyli) yox deyil) vəzifəli şəxslər Anarın qocalığından suiistifadə edir, ifrat təbliğatı ilə məşğul olurlar, hətta "köhnə" yazılarını "cavanlaşdırır"lar! Məqsəd, əlbəttə, o şəxslərin tutduqları vəzifələrini saxlamaqdır. Belə rahat, sərbəst maaşlı yeri harada tapacaqlar? Başda üç vəzifə daşıyan, nə şairliyi, nə yazıçılığı olmayan Rəşad Məcidi nəzərdə tuturam. O, AYB-nin sədrinin müavinidir. Rahat kabineti, telefonu, katibəsi vardır, eyni zamanda həm respublika Mətbuat Şurasının sədri, həm də "525-ci qəzeti"-nin baş redaktorudur. Bu ədəbi və elmi səriştəsiz, siyasi əqidəsi dəyişkən olan Rəşad Məcid necə oldu bu üç vəzifəyə sahib çıxdı? Rəşad Məcid cəbhəçi liderlərdən olub, Elçibəy dövründə müvafiq vəzifə də tutmuşdu, səliqəli kabineti də vardı. Amma bəzi "cəbhəçilər"sayağı siyasi əqidəsini dəyişdi, oldu "iqtidarçı"! Belə bir əqidə sahibi özü kimi akademik Rafael Hüseynovun palaz - palaz məqalələrini qəzetində çap etməkdədir.

R.Hüseynova hörmətim var, musiqi ilə məşğul olmuş, yaxşı aparıcıdır. Xatırlayıram ki, Elçibəyin zamanında həbs olunan İsa Qəmbərin "Yeni Musavat" qəzetində "Açıq məktubu" (prezidentə ünvanlanmışdı) ilə müdafiəsinə qalxdı, ən bəlağətli fikir-lərilə "müka-fatlandırmışdı"(çox istərdim qəzet həmin məqaləni təkrar çap eləsin, qoy yeni nəsil cildini dəyişən "siyasi liderlər"i tanısınlar). Rafael Hüseynov bu gün Millət vəkilidir, mühüm vəzifə: Muzey direktorudur - daşıyır. İşini - gücünü barələrində əsərlər, məqalələr yazılmış ədəbi şəxsiyyətlərin yaradıcılığını ritorik, pafoslu cümlələrlə təbliğ edən akademik qələminə hörmət etməyə borcludur (mən bunu gözləyirəm).

Rəşad Məcidə gəldikdə (vaxtilə onun ədəbi yaradıcılığı (!) haqqında yaz-mışam, özünə də hörmətimi gizlətmirəm. Lakin "Qələmsiz, dəftərsiz" silsilə məqa-lələrini oxuyanda xəcalət çəkməmək qeyri - mümkündür, naşı jurnalist - tələbənin sayıqlamasını xatırladır. Nümunələr vermək istəmədim, özü də bilmir bu janrda nə yazır. Məntiqlə, "Dəftərsiz, qələmsiz" nədən, necə yazmaq olar? AYB-nin məsul funksioneri, qəzetin baş redaktoru istedadını beləmi ortaya qoyur? Mən inanıram ki, üç məsul vəzifə daşıyan Rəşad Məcid haqqında yüksək səviyyədə düşünəcəklər, respublikamızda köklü kadr dəyişikliyi aparılır, gənc və səriştəli, əqidəli şəxslərə vəzifə etibar olunur. Təqdirəlayiqdir! Mətləbdən yayınmıram: Sədr Anar Rzayev hələ ki, tutduğu vəzifəni icra etməyi bacarmır, görünür, yaşı ilə bağlıdır. Unut-mayaq ki, istefanın özü bir mədəniyyətdir. Axı, Anar tanınmış yazıçıdır, romanlar yazıbdır, dəfələrlə Millət vəkili seçilmişdir, belə bir ictimai xadimin 38 il sərasər sədrlikdə qalması ancaq təəssüf doğurur. Odur ki, o, ona ünvanlanan məktublara cavab belə, verməyi ya unudur, ya müraciətləri ona çatdırmırlar, ya da laqeyddir. Bu üç yoldan biridir ki, ona şəxsən ünvanladığım məktublarda atası Rəsul Rzanın, atası İmamverdi Əbilovla şəxsi dostluğu vasitəsilə "Ədəbiyyat qəzeti"nə baş redaktor təyin etdiyi Azər Turan haqqında fikirlərimə laqeyd yanaşmasını necə ba-ğışlayasan?!

Cavabsız qalan I məktubumdan bəzi fraqmentləri xatırladıram:

Hörmətli Anar müəllim!

Mənim Sizə müraciətimdə sünilik və iddiaçılıq axtarmayın. Əvvəla, gördü-yün, müşahidə etdiyin nöqsanları (həm maddi, həm də ideoloji baxımdan) bildir-mək hər bir vətəndaşın borcudur. Təki, şübhələr öz yerini tutmasın...

Azərbaycan Yazıçılar Birliyinin orqanı olan "Ədəbiyyat qəzeti"nin Baş re-daktoru Azər Turan Əbilov bir neçə illik fəaliyyətində qəzeti ümumirespublika oxucuları üçün deyil, şəxsi zövqü ilə nəşr edir. Əvvəla, atanız Rəsul Rza ilə Azər Turanın atası İmamverdi Əbilovun şəxsi dostluğu, ikincisi, Azər Turanın atası İmamverdi Əbilov atanız Rəsul Rzadan dissertasiya müdafiə etmiş, dost olmuşlar və Sizin bilavasitə zəmanətinizlə təyin olunmuşdur. (Belə ki, qəzetə yenicə təyin etdiyiniz Elçin Hüseynbəylini bir neçə aydan sonra gözlənilmədən Baş redaktor-luqdan azad etdiniz). O isə qəzeti öz zövqü ilə formalaşdırmaqdadır. Daha doğru-su, qəzetçilik prinsiplərini gözləmədən istədiyi mətnləri səhifəyə qoyur, qəzetin hansı həcmdə məqalə verilməsi prinsipini gözləmir, hekayənin, elə də vacib olma-yan bir məqalənin həcmi beş-yeddi səhifəyə çatır! (Bax: "Ədəbiyyat qəzeti", 03. Dekabr 2022)

Azər Turan bəzi pozuntulara yol vermişdir. Məsələn:

1. Hər bir müəllifin məqaləsinə qələm haqqı - qonorar verilir. Qəzetin qono-rar məbləği var, dövlət tərəfindən ayrılmışdır (bu, gizli saxlandığından məlumat-sızam).

Qələmhaqqı həm daxili (əməkdaşları nəzərdə tutmaqla), həm də kənar müəl-liflərə verilməlidir, nisbət fərqlidir, kənar yazarlar üstünlük təşkil edir. Baş redak-tor Azər Turan rəsmi ayrılan qələmhaqqını desəm ki, istədiyi kimi verir hər müəl-lifə, təəccüblənməyin. Mənim onun Baş redaktor olduğu vaxtdan 7-8 iri həcmli məqaləm çap olunsa da bir manat belə qələmhaqqı almamışam (son iki məqaləm qəzetin 15 aprel və 25 dekabr 2023-cü il saylarında çap edilmişdir). Mən istərdim bu faktı prokurorluq dəqiqləşdirsin: O, hansı haqla vəzifəsindən sui-istifadə edir? Azər Turan müəlliflərin zəhmət haqqı olan qonorarı kimlərə yazır? Özünə, qəzetin şöbə müdiri Elnarə Akimovaya, dostlarına, yaxud Yazıçılar Birliyinin çap olunan əməkdaşlarına - müəlliflərinəmi? O cümlədən, istədiyi müəlliflərəmi? Əgər belə-dirsə, bu korrupsiya əlaməti deyilmi?!

2. Əmək qanunvericiliyinə görə, bir şəxs eyni vaxtda iki idarədə, müəssisədə tam ştat vəzifə tuta bilməz. Qəzetin şöbə müdiri Elnarə Akimova əzəldən N.Gəncəvi adına Ədəbiyyat İnstitutunda (AMEA-sı) şöbə müdiri vəzifəsində işləyir. Azər Turan bu xanımı, elmi işçini Baş redaktor vəzifəsinə gəldikdə qəzetdə şöbə müdiri vəzifəsinə təyin etmişdir (qəzetdə vəzifəsi göstərilirdi). İki müxtəlif məkanda yer-ləşən İnstitutda və qəzetdə iki vəzifəni necə tuta bilər, iki yerdən necə maaş ala bilər? Qanun buna yol vermir, üstəlik, Azər Turan E.Akimovanı digər iki şöbə müdi-rindən fərqləndirərək redaksiya heyətinin üzvü etmişdir "27 lər" (!) sırasında! O iki şöbə müdiri isə nə üçün redaksiya heyətinin üzvü seçilməmişdir, səbəb? Mən sədr kimi sizdən bu məsələnin yoxlanılmasını tələb etmişəm.

3. Baş redaktor Azər Turan fəaliyyətinin ilk illərində "Ədəbiyyat qəzeti"nin "qrifi" ilə kitablar buraxdırmışdır. Maraqlıdır və dəqiqləşdirməyə ehtiyac duyuram: Bu kənar müəlliflərin kitablarının poliqrafik xərclərini redaksiyamı ödəmişdir, yoxsa müəlliflər?

Mən AYB-nin üzvü kimi maraqlanmaq istədim

4. Vaxtilə ulu öndər Heydər Əliyev Kremldən uzaqlaşdırılandan sonra onun çörəyini yeyənlər, vəzifədə oturanlar böhtanlara əl atdılar, məqalələr yazdılar. Onlardan biri də Məmməd Murad-(ov) idi. Heydər Əliyevə qarşı sərt mövqe tutmuşdu. H.Ə.Əliyev ikinci dəfə hakimiyyətə qayıtdıqda M.Murad respublikanı tərk etdi, xarici ölkəyə üz tutdu, izi itirmək üçün özünə "Baykal" təxəllüsünü götürdü və bir müddət yazmadı. "Ara sakitləşəndən" sonra mətbuata yol tapdı: Azər Turan "Ədə-biyyat qəzeti"ndə M.Baykalın məqalələrini (Bax: M.Baykal "Çiçəkləri arılara tapşırın" (03.12.2023) və "Anarın kitabı" (10.12.2022) çap etdi. Məntiqlə yox, həqi-qətlə Heydər Əliyevə böhtanlar atanı, çap edəni - bir qəzetin baş redaktoru vəzi-fəsində saxlamaq mümkünmü? Sədr Anar özü haqqında yazılan məqaləni necə qə-bul edir? Və Azər Turanın idealogiyası ilə necə barışır?

5. Qəzet vaxtilə "Ədəbiyyat və incəsənət" adı ilə nəşr olunmuşdur və 4 sə-hifəlik çıxırdı, ondan artıq ştatda əməkdaşı vardı. Bu gün həftədə 32 səhifədə nəşr olunan qəzetin neçə əməkdaşı olmalıdır, bu da bir sirrdir. Azər Turan neçə əmək-daşla qəzet çıxarır? Belə ki, üç şöbə müdiri və baş redaktor müavini çalışır. Bəlkə Baş redaktor "ağrımaz başı"-na üstünlük verir? Çün qəzetə Azər Turan, Elnarə Akimova demək olar ki, hər sayında palaz-palaz məqalələrlə çıxış edirlər. E.Aki-mova gündəlikdə görünmək naminə hətta adi müəllifin 2019-cu ildə çap olunan kitab haqqında iri həcmli məqaləsini çap edir. Çün o, qəzetdə nə istəyirsə çap olunur, eləcə də Azər Turan, təvazökarlıq etikası hər ikisində yox dərəcəsindədir.

6. Maraqlı bir faktı da xatırlatmalı oldum: Qəzetin son səhifəsində oxucu-larla əlaqə saxlamaq üçün telefon nömrələri verilir, pulu ödənilir. Azər Turan hə-min telefonları qapatdırmışdır. (Bu sətirləri yazanda onun telefon nömrəsinə zəng vurdum, işləmədi, susdu telefonlar). Bu, o deməkdir respublika oxucuların, yaxud müəlliflərin qəzetlə əlaqəsi kəsilsin. Baş redaktoru narahat etməsinlər. Qəzetçilik təcrübəsində bu hal nadir hadisədir. A.Turana belə özbaşınalıq səlahiyyətini kim vermişdir? (İradımdan sonra bu problem yoluna qoyuldu).

***(Ardı var)***





**Oxucularımıza təqdim etdiyimiz bu məqalənin əsas məqsədi narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinin terror təşkilatlarının maliyyələşdirilməsində rolunu müəyyən etməkdir. Kimsəyə sirr deyil ki, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsindən əldə edilən gəlirlər bəzi terror təşkilatları üçün əsas maliyyə mənbəyidir. Narkotik ticarətindən əldə edilən gəlirlər bütün fəaliyyətləri maliyyələşdirmək üçün istifadə edilə bildiyindən, terror təşkilatlarının məqsədlərinə də çatmağa kömək edir. Narkotik tacirləri terrorçuların təşkilatlanma metodları, silah tədarükləri və gizli təşkilatlara daxil olma imkanlarından istifadə edərkən, terrorçu təşkilatlar da narkotik maddəni bir gəlir mənbəyi kimi istifadə edir və əldə edilən çirkli pulun yuyulmasında narkotik tacirlərinin metodları və imkanlarından maksimum səviyyədə istifadə edir. Narkotik maddə ticarətinin terrorun ayrılmaz hissəsi olduğu və narkotik maddə ticarətinin terrorun bir növ bataqlığı olduğu da vurğulanır.**

# Narkotik pulları ilə "qidalanan" terror təşkilatları...



Öncə onu qeyd edək ki, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi 1980-ci illərə qədər terrorizmin maliyyələşdirilməsində mühüm gəlir mənbəyinə çevrilməmişdir. Bir çox terror təşkilatları əsasən siyasi-ideoloji səbəblərə görə narkotik biznesində əhəmiyyətli dərəcədə iştirak etməkdən uzaq durmuşlar. Soyuq müharibə bitdikdən sonra bəzi terror təşkilatları yanaşmalarını dəyişdirdilər və narkotik ticarətini əsas gəlir mənbələrindən birinə çevirdilər. Bu müddətdə bir çox böyük və kiçik təşkilat narkotik ticarəti ilə az-çox məşğul idi. Təşkilatların müdafiə etdiyi ideologiya və ya əldə etmədikləri siyasi hədəflərin təbiəti narkotikdən gəlir əldə etmələrinə mane olmadı.



Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsindən əldə edilən gəlirlər, xüsusilə böyük məbləğlərə çatdıqda, terror təşkilatlarının sağ qalmasına və güclənməsinə ciddi töhfə verir. Digər tərəfdən, terrorizmin cinayətkarlıqla əlaqəsi haqqında tezis ədəbiyyatında göstərildiyi kimi, aşağıda müzakirə ediləcək, narkotik gəlirlərinin əldə edilməsində istifadə olunan üsullar və qüvvəyə minən münasibətlər arasında təşkilatın identifikasiyası, təşkilat daxilində tarazlıq, təşkilat üzvlərinin sədaqəti və liderə sədaqət, təşkilatın münasibətləri (rəqib terror təşkilatları və cinayətkar təşkilatlarla, fəaliyyət göstərdiyi dövlətlə və digər dövlətlərlə) bu, onunla əlaqəli mənfi cəhətlər yaratması ilə əlaqədardır.

Bu məqalədə narkotik ticarəti ilə ən çox məşğul olan təşkilatların gördükləri tədbirlər sayəsində siyasi kimliklərini qoruya bildikləri və eyni zamanda terror və mütəşəkkil cinayətkar bir təşkilat olaraq varlıqlarını qoruya bildikləri fərziyyəsi araşdırılacaqdır. Bu məqsədlə, ilk növbədə, terror təşkilatlarının narkotik ticarətinə yönəlməsi fenomeni və əsas səbəbləri göstəriləcəkdir.

Terror təşkilatlarının narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə müraciət etməsinin həlledici səbəbi gəlir əldə etməkdir. Müvafiq olaraq terror təşkilatlarını gəlir mənbələri tapmaq üçün əhəmiyyətli səy göstərməyə sövq edən iki əsas hadisədən teztez bəhs olunur. İlk hadisə, soyuq müharibənin sona çatması ilə terror təşkilatlarına xarici dövlət dəstəyinin azalması idi. Soyuq müharibə dövründə supergüclər yüksək rəqabət bölgələrində onlarla birlikdə fəaliyyət göstərən dövlətlərə (surroqat dövlətlərə) əhəmiyyətli dərəcədə kömək etdilər. Dövlətlərin təşkilatlara verdiyi maliyyə dəstəyinin dəqiq miqdarı bəlli deyildir. Bütün hesablara görə, bu məbləğ təşkilatların fəaliyyətlərini müntəzəm olaraq davam etdirmələri üçün kifayətdir. Surroqatlara dəstək praktikası soyuq müharibə bitdikdən sonra dayandırıldı. Beləliklə, surroqat dövlətlərin təşkilatlara dəstək vermək imkanları da xeyli azaldı. Xarici dəstəyin azalması təşkilatları yeni mənbələr axtarmağa sövq etdi.

İkinci hadisə 11 sentyabr hücumlarından sonra terrorizmin maliyyələşdirmə mənbələrinə qarşı görülən tədbirlərdir. Bu tədbirlərin təsir göstərməsi terror təşkilatlarının qaynaq çatışmazlığını daha da artırdı. Yeni mənbələr əldə etmək istəyən təşkilatlar ümumiyyətlə qaçaqmalçılığa üz tutdular, şərtləri əlverişli olanlar da narkotik ticarəti ilə məşğul oldular. Həmin dövrdə faktiki olaraq terror təşkilatları bu ərazilərdə gəlir əldə edə biləcək hər cür mənbəyə (məsələn, qiymətli metalların çıxarılması və qaçaqmalçılığı, neft məhsullarının qaçaqmalçılığı, antik əşyaların qaçaqmalçılığı və insan alveri) maraq göstərdilər. Lakin narkotiklər böyük gəlir əldə etmək qabiliyyətinə görə həmişə diqqət mərkəzində olub. Narkotik vasitələr asanlıqla transfer edilən bir maddədir. Narkotik vasitələrin və psixotrop maddələrin istehsal olunduğu yerdə qiyməti ilə son istehlakçının ödədiyi qiymət arasında böyük bir dekommunizasiya var və bəzən bu fərq minlərlə dəfə çox ola bilər. Dekommunizasiya qiymətlərindəki bu fərq, fermerdən son istehlakçıya qədər ara iştirakçıların yüksək gəlir əldə etməsi üçün kifayətdir. Həmçinin, təşkilat müxtəlif vasitələrlə narkotik vasitələrin ticarətindən özünə pay ala bilməkdədir. Məsələn, narkotik bitkisi yetişdirən fermerdən, təmizlənmiş xammal istehsal edən müəssisələrdən və əldə edilmiş məhsulu ölkə xaricində vergi və ya komissiya adı altında ixrac edənlərdən və küçədə narkotik satanlardan pul almaq imkanı var.

Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsindən yüksək gəlir əldə etmək potensialına baxmayaraq, müxtəlif səbəblərdən yalnız müəyyən sayda təşkilat böyük və davamlı narkotik gəlirləri əldə etmişdir. Birincisi, bir təşkilatın narkotikdən böyük gəlir əldə etməsi, işlədiyi sahədə təsirinin olub-olmamasından asılıdır. Əks təqdirdə, birdəfəlik və ya az gəlir gətirən narkotik deyilsə, narkotik kartelləri 1980-ci illərdə Meksika və ya Kolumbiyada olduğu kimi bu sahədə də söz sahibi olacaqlar.

İkincisi, təşkilatın çox miqdarda narkotik yetişdirildiyi ərazilərdə və ya narkotik ticarəti baxımından ona üstünlük verəcək coğrafiyada fəaliyyət göstərməsi vacibdir. Lakin qeyd edtmək lazımdır ki, bəzi terror təşkilatlarının əlaqələri səbəbindən narkotik ticarəti ilə məşğul olduğu iddiaları coğrafi mövqe ilə bağlı yuxarıdakı fikirləri pozur.

Üçüncüsü, alternativ mənbələrdən gəlir əldə etməyi bacaran təşkilatlar, nüfuzlu təşkilatlar olsalar da, narkotik ticarəti ilə çox məşğul olmurlar. Həmçinin həmin təşkilatların narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsindən əldə etdikləri gəlirlər bu təşkilatların əsas gəlirlərindən biri olacaq səviyyəyə çatmadı.

Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi nəticəsində əldə olunan gəlirləri bu gün ən çox diqqət çəkən təşkilatlardan biri "Taliban"dır. Bu təşkilatın narkotik ticarəti ilə məşğul olmaq üçün özünəməxsus səbəbləri olsa da, əsas səbəb gəlir əldə etməkdir. Hər bir təşkilatın ümumi gəliri bəlli olmadığı kimi narkotiklə əlaqəli gəlirlərin miqdarı ilə bağlı fərqli rəqəmlər var. Eyni zamanda, hər bir təşkilatın gəlirləri zamanla dəyişir.

Marksist ideologiyaya sadiq qalaraq Kolumbiya İnqilabçı Silahlı Qüvvələri (FARC) uzun müddət (1964-cü ildə qurulduğu gündən 1982-ci ilə qədər) təşkilatın işinə zərər verəcəyindən qorxaraq narkotik işindən uzaq durdu. Bu dövrdə təşkilatın maliyyə imkanları məhdud idi. 1990-cı illərdə Kolumbiyanın cənubu ən çox koka yarpağının yetişdirildiyi əraziyə çevrildi. 1990-cı illərin başlanğıcında FARC yerli koka yarpağı istehsal edən kəndliləri böyük torpaq sahiblərindən və bunun müqabilində koka yarpaqlarından və kokain pastasından az miqdarda vergi almağa başladı. 2000-ci illərdə təşkilat narkotik ticarəti ilə daha çox məşğul oldu. Təşkilatın xammalın təmizlənməsi üçün istehsal müəssisələri qurduğu və ya mövcud istehsal müəssisələrindən xərac aldığı və beynəlxalq kokain daşınmasında iştirak etdiyi bilinir.

FARC-ın narkotiklə əlaqəli gəlirlərinin 2000-ci illərin ortalarında zirvəyə çatdığı düşünülür. Ancaq gəlir miqdarı ilə bağlı rəqəmlər fərqlidir. Bu gəlirin minimum 100 milyon dollardan maksimum bir neçə milyard dollara qədər olduğu iddiaları var. Müxtəlif qiymətləndirmə metodlarına görə, təşkilatın 2000-ci illərdə 400-500 milyon dollar arasında narkotik gəliri əldə etdiyi ağlabatan hesab olunur.

*(Ardı var)*

**Əntiqə ŞÜKÜROVA**